AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 13 (1358), 3 - 9 aprel 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## “Olimpiya Odisseyası” proqramının təqdimat mərasimi keçirilib

Martın 30-da Milli Olimpiya Komitəsinin (MOK) və Olimpiya Həmrəyliyi Fondunun birgə dəstəyi ilə “Olimpiya Odisseyası” proqramının təqdimat mərasimi keçirilib. Tədbirdə MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK-un baş katibinin müavini Azər Əliyev, Olimpiya çempionları və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə bildirilib ki, 2008-ci ildə MOK azərbaycanlı Olimpiya çempionları haqqında sənədli filmlərin çəkilməsi barədə qərar qəbul edib. Həmin dövrdən başlayaraq, Azərbaycanın Olimpiya çempionlarına həsr olunmuş “İlk qızıl”, “Qızıl Sidney”, “Cəngavər”, “Elin nuru”, “Ərtoğrul” kimi sənədli filmlər çəkilib. Ötən il isə MOK tərəfindən çəkilmiş filmlərin bir albomda toplanmasını və təqdimatını nəzərdə tutan “Olimpiya Odisseyası” proqramının həyata keçirilməsi qərara alınıb.

*(ardı 2-ci səhifədə)*

## Gənclər və İdman Nazirliyində görüş olub

Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Olimpiya Oyunlarına lisenziya xarakterli turnirlərdən qayıdan Azərbaycanın stolüstü tennis və üzgüçülük üzrə yığma komandalarının üzvləri ilə Gənclər və İdman Nazirliyində görüş keçirilib.

Gənclər və idman Nazirinin müavini İsmayıl İsmayılov görüşdə çıxış edərək Azərbaycanın digər sahələrdə olduğu kimi, idmanın inkişafı baxımından da dünyada nümunə olduğunu bildirib: “Azərbaycan dövləti idmana və idmanın inkişafına yüksək diqqət göstərir. Dünyada ən böyük idman tədbiri olimpiada yarışlarıdır. Sevindirici haldır ki, artıq yeddi idmançımız bu mötəbər yarışa lisenziya qazanıb. Tennis və üzgüçülük yarışlarında lisenziya qazanmaq çox çətindir. İdmançılarımız arasında olimpiadaya lisenziya qazanmaq üçün güclü rəqabət var”.

*(ardı 2-ci səhifədə)*



## Minskdə II Avropa Oyunlarına hazırlıq məsələləri müzakirə olunacaq

***2019-cu il iyunun 21-dən 30-dək Belarusun paytaxtında keçiriləcək II Avropa Oyunlarında iştirak edəcək ölkələrdən on iki Milli Olimpiya Komitəsinin nümayəndələri Minskdə toplaşıblar.***

Avropa Oyunlarının Təşkilat Komitəsi iki gün müddətində Azərbaycan, Belarus, Belçika, Danimarka, Böyük Britaniya, Macarıstan, Latviya, Lüksemburq, Hollandiya, Rumıniya, Rusiya və Türkiyənin Milli Olimpiya komitələrinin nümayəndələri və Avropa Olimpiya komitələrinin ekspertləri ilə birgə iclaslar keçirəcək. Nümayəndələr, həmçinin yarışların keçiriləcəyi idman obyektlərinin bir neçəsinə baş çəkəcək, Atletlər kəndində yaradılan şəraitlə tanış olacaqlar.

“2019-cu ilin II Avropa Oyunları Direksiyası” Fondunun direktoru Georgi Katulin deyib: “Qarşıdakı iki gün ərzində intensiv və məhsuldar iş aparılacağına ümidvaram. Əminəm ki, “Açıq qapı”nın ilk günü qarşıdakı irimiqyaslı idman tədbirinə hazırlığın müəyyən aspektlərini görməklə yanaşı, bizim bu layihəyə nə dərəcədə ciddi yanaşmağımızın şahidi olacaqsınız. Bu səfərin yekunlarına dair verəcəyiniz qiymətə və şərhlərə çox ehtiyacımız var. Çünki məhz siz - II Avropa Oyunlarının iştirakçı ölkələrinin Milli Olimpiya komitələri Oyunların Təşkilat Komitəsi və atletlər arasında birləşdirici halqa funksiyasını yerinə yetirirsiniz və idmançıların təkcə yarışlarla bağlı deyil, habelə məişət müstəvisində də ehtiyaclarına bələdsiniz”.

Qeyd edək ki, II Avropa oyunları Minskdə 12 idman obyektində keçiriləcək. Oyunlarda 50 ölkədən 4 mindən çox atlet 15 idman növü üzrə 200 medal dəsti uğrunda mübarizə aparacaq. İdmanın 10 növü üzrə yarışlar 2020-ci ildə Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarına təsnifat mərhələsi olacaq.

# Xəbərlər

## Sofiyadan 4 medal

Bolqarıstanın paytaxtı Sofiya şəhərində güləş üzrə 56-cı “Dan Kolov - Nikola Petrov” adı altında beynəlxalq turnir təşkil edilib. Ölkəmizi bu yarışda uğurla təmsil edən pəhləvanlarımız vətənə 4 (2 qızıl və 2 bürünc) medalla qayıdıblar.

Yunan-Roma güləşçilərimizdən Rəsul Çunayev (72 kq) qızıl və qadın güləşçilərimizdən Mariya Stadnik (50 kq) turnirin baş mükafatına layiq görülüblər.



Daha bir yunan-Roma güləşçimiz Elman Muxtarov (67 kq) və qadın güləşçimiz Elis Manolova (65 kq) isə bürünc medal qazanıblar.

Beləliklə, Bolqarıstanın paytaxtı Sofiya şəhərində təşkil edilən beynəlxalq turnirdə 4 idmançı ilə təmsil olunan güləş komandamızın hər bir üzvü medal qazanıb.

## Avropa çempionatında 2 medal qazanıldı



Rumıniyanın Tırqu-Jiu şəhərində 22 yaşınadək boksçular arasında Avropa çempionatı başa çatıb. Azərbaycan millisi yarışı 1 gümüş və 1 bürünc medalla başa vurub.

Çempionatın sonuncu günündə yığmamızın üzvü Tayfur Əliyev (56 kq) rumıniyalı Robert Eusebi Jitarunu sınağa çəkib. Gərgin keçən final döyüşü rəqibin qələbəsi ilə başa çatıb. Nəticədə Avropa Oyunlarının mükafatçısı yarışı ikinci pillədə bitirib. Komandamızın digər üzvü Məhəmməd Abdullayev (+91 kq) isə bürünc medal qazanıb.

# Anons

*Yeni Olimpiya İdman Kompleksinin təməli qoyulub*

Boccia İdman Federasiyasının təqdimatı olub

*“Zəfər kuboku”nda 20 medal*

Səh. 2

DİN-in kikboksinqçiləri 12-ci dəfə Respublika kubokuna sahib oldular

*Millimiz Rabat sınağında*

Səh. 3

Şuşa güləşinin əfsanəsi

*“Polad kuboku” başa çatıb*

Səh. 6

Yığmamız Antalyadan heç-heçə ilə qayıdıb

*UEFA-nın reqlamentindəki yeniliklər hansıdır?*

Səh. 7

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## İdman həm fiziki, həm də zehni inkişafı təmin edir

# Olimpizm

### Tomas Bax Şimali Koreyanın rəhbərinə təşəkkür edib



Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Koreya Xalq Demokratik Respublikasının (KXDR) rəhbəri Kim Çen İnlə görüşüb. Pxenyanda bir araya gələn tərəflər Şimali Koreya idmançılarının Olimpiya Oyunlarında iştirakı ilə bağlı danışıblar.

BOK-un prezidenti XXIII Qış Olimpiya Oyunlarının təşkilində göstərdiyi dəstəyə görə Şimali Koreyanın rəhbərinə minnətdarlığını bildirib: “Pxenyana gəlmişəm ki, Kim Çen İnə şəxsən öz minnətdarlığımı bildirim”.

Səfər çərçivəsində Tomas Bax həm də ölkənin idman naziri Kim İr Hukla görüşüb.

### Olimpiada-2024-ün büdcəsi 500 milyon dollar təşkil edəcək

2024-cü ildə Fransanın Paris şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarının büdcəsi 500 milyon dollar təşkil edəcək.

Bu barədə “Reuters” Agentliyi xəbər yayıb. Agentliyin yazdığına görə, ölkə iqtisadçılarının müdaxiləsi olmadığı təqdirdə XXXIII Yay Olimpiya Oyunlarının təşkili üçün büdcədən yarlm milyard dollar vəsait ayrılacaq.

Məlumat üçün bildirək ki, yarışların keçirilməsi üçün əvvəlcə 6,8 milyard dollar nəzərdə tutulmuşdu.

Paris 2017-ci ildə Olimpiada-2024-ün ev sahibi seçilib.

### Ərzurum ərizə ilə müraciət edib

Türkiyənin Ərzurum şəhəri 2026-cı ildə keçiriləcək Qış Olimpiya və Paralimpiya Oyunlarına ev sahibliyi etmək üçün ərizə ilə ilə müraciət edib.

Beynəlxalq Olimpiya Komitəsinə namizədlik ərizələri martın 31-dək təqdim edilib. Beynəlxalq qurum rəsmi namizəd şəhərlərin adlarını bu ilin oktyabr ayında açıqlayacaq. Olimpiada-2024-ə ev sahibliyi edəcək şəhərin adına isə 2019-cu ilin yayında aydınlıq gələcək. Namizədlik uğrunda mübarizədə Kalqari (Kanada), Sapporo (Yaponiya), Stokholm (İsveç), Syon (İsveçrə) Milan və Turin (İtaliya), eləcə də Qrats və Şlamdinq (Avstriya) şəhərləri yarışacaqlar.

Olimpiya dünyası

3 - 9 aprel 2018



# "Olimpiya Odisseyası" proqramının təqdimat mərasimi keçirilib

*(əvvəli 1-ci səhifədə)*

Sonra "Olimpiya Odisseyası" proqramından bəhs edən videoçarx nümayiş olunub.

İdeya müəllifi və baş rejissoru Arzu Qulamov filmlərin ərsəyə gəlməsi haqqında məlumat verib, ekran əsərlərinin çəkilməsi, istehsal prosesindən danışıb: "Əvvəlcə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadəyə və gənclər və idman naziri Azad Rəhimova öz minnətdarlığımı bildirirəm. Layihənin yaranmasından danışmaq istərdim. Dostumla birlikdə Çingiz müəllimin yanına getdik və bu layihə haqqında məlumat verdik. O, bizim ideyamızı çox yaxşı qarşıladı. Layihəni həyata keçirməyimiz üçün bizə dəstək oldu. Bu filmləri çəkəndə idmançılarımızın səmimiliyi həqiqətən məni təccübləndirdi. Bildiyiniz kimi, idmançılar çox vaxt öz dünyalarına qapalı insanlar olurlar. Onları səmimi söhbətə cəlb etmək o qədər də asan olmur. Lakin biz filmlərin çəkilişi zamanı idmançılarımızla səmimi ünsiyyətdə olduq", - deyə o əlavə edib.

Çingiz Hüseynzadə filmin baş rejissoru Arzu Qulamova "Olimpiya Odisseyası" layihəsinin uğurlu icrası və ölkədə Olimpiya hərəkatının təbliğində göstərdiyi dəstəyə görə təşəkkürnamə və xatirə hədiyyəsi təqdim edib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycanın idman nailiyyətləri, o cümlədən ölkəmizin Olimpiya Oyunlarındakı uğurlarının təbliği baxımından layihənin əhəmiyyətini yüksək qiymətləndirib: "Olimpiya çempionları haqqında film çəkmək təklifi olunanda bunu müsbət qarşıladım, filmin büdcəsini müzakirə etdik. Filmlər çəkildikdən sonra Arzu müəllim yeni bir ideya verdi ki, bu filmləri toplayaq və "Olimpiya Odisseyası" adı altında birləşdirək. Ekran əsərləri Azərbaycanın bütün rayonlarında da nümayiş olunacaq. Arzumuz budur ki, bundan sonra hər bir idmançı öz filmi ilə Azərbycanın hansısa rayonuna getsin. "Olimpiya Odisseyası" haqqında Avropa Olimpiya Komitəsinə də məlumat verdik. Onlar bizim ideyamızı dəstəklədilər. Bizə bildirdilər ki, sizin bu təkliflərinizi bütün Avropaya yayacağıq. Fikirləşirəm ki, bu, Avropada ilk olacaq. Bu layihəni gələcəkdə də davam etdirmək fikirimiz var. Bu filmlər haqqında Prezident İlham Əliyevə məlumat verdikdə o, bildirdi ki, bu filmləri mütləq çəkmək və geniş ictimaiyyətə təqdim etmək lazımdır. İnanıram ki, Azərbaycanın altı Olimpiya çempionunun uğurları və onların karyeraları bu filmlər vasitəsilə gənclərdə və uşaqlarda idmana böyük məhəbbət və maraq oyadacaqdır".

Olimpiya çempionları Zemfira Meftaxetdinova, Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli və Toğrul Əsgərova film dəsti təqdim olunub.

Çempionlar çıxışlarında layihənin əhəmiyyətini xüsusi vurğulayaraq, onlara göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

***Əliyə İlyasova***

# Xəzər Isayev BƏOK Ədalətli Oyunlar İnkişaf Mərkəzinin prezidenti seçilmişdir

Martın 23-24-də Macarıstanın paytaxtı Budapeşt şəhərində Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) İcraiyyə Komitəsinin İclası keçirilib. Tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev iştirak edib. Tədbir çərçivəsində gündəlikdə dayanan bir sıra məsələlər müzakirə olunaraq öz həllini tapıb. Qurumun İcraiyyə Komitəsinin təşəbbüsü ilə Beynəlxalq Ədalətli Oyunlar Komitəsi Ədalətli Oyunlar İnkişaf Mərkəzinin Azərbaycanın paytaxtı Bakıda yaradılması qərara alınıb. İcraiyyə Komitəsi üzvlərinin yekdil səsverməsinə əsasən MOK-un vitse-prezidenti, AzƏOK-un sədri Xəzər Isayev 9 dövləti əhatə edən (Azərbaycan, Gürcüstan, Tacikistan, Qazaxıstan, Türkmənistan, Öbəkistan, Qırğızıstan, Monqulustan, İran) BƏOK Ədalətli Oyunlar İnkişaf Mərkəzinin prezidenti seçilib. Tədbir zamanı həmçinin BƏOK-un 2017-ci ilin yekunlarına əsasən müəyyən olunmuş mükafatlarının təqdimetmə mərasiminin 2018-ci il sentyabrın 20-27-də Azərbaycanda keçiriləcək cüdo üzrə dünya çempionatı çərçivəsində keçirilməsi öz təsdiqini tapıb.




# Gənclər və İdman Nazirliyində görüş olub

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov əldə olunan uğurların ölkəmizdə idmanın inkişafının göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, stolüstü tennis idmanında uğur qazanmaq çox çətindir. Vitse-prezident qazanılan uğurların Azərbaycan dövlətinin idmana yüksək qayğısının bəhrəsi olduğunu vurğulayıb.

Qeyd edək ki, Tunisdə keçirilən turnirdə komandamızın üzvü Yu Xinhangin bütün rəqiblərinə qalib gələrək gənclərin Olimpiya Oyunlarına lisenziya qazanıb. İlk lisenziyanı isə millimizin aktivinə Ninq Jinq yazdırıb.

Üzgüçülük üzrə Azərbaycan millisinin baş məşqçisi Rəşad Əbdülrəhmanov isə Slovakiyanın Jilina şəhərində keçirilən yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya xarakterli açıq birincilik haqqında məlumat verib. Bildirib ki, komandamızın üzvü Maksim Şemberev 4 qızıl medal qazanıb. O, həmçinin turnirin rekordunu da yeniləyərək 2019-cu ildə keçiriləcək dünya çempionatına lisenziya qazanıb. Digər üzgüçümüz Fatimə Alkaramova 3 qızıl və 2 bürünc, Alsu Bayramova isə 2 qızıl, 1 bürünc medal qazanaraq Yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya əldə ediblər. Fatimə Alkaramova həm də turnirin ən güclü qadın idmançısı adına layiq görülüb. Yığmanın üzvləri Ayan Kələntərova 1 qızıl, 4 gümüş, Ramil Vəlizadə 3 gümüş, Rəşad Əliquliyev gümüş və Vəli İsrafilov bürünc medala yiyələniblər.

İdmançılar da çıxışlarında yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, onlara göstərilən etimadı daim doğrultmağa çalışacaqlarını vurğulayıblar.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

# Kiçikyaşlı atletimizin arzuları böyükdür

Böyük idmana gedən yol uşaq idmanından başlayır. Bu baxımdan uşaqların kiçik yaşlarından bu sahəyə cəlb edilmələri vacib amillərdəndir. Uşaqların fiziki və mənəvi inkişafında böyük rol oynayan bədən tərbiyəsi və idmanın inkişafı bu gün vacib məsələlərdən biri kimi dövlətimizin diqqət mərkəzindədir. İdmana dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, minlərlə uşaq, yeniyetmə və gənc müxtəlif idman növlərinin sirlərinə yiyələnməklə yanaşı, həm də bu sahədə yüksək uğurlar qazanırlar. Şübhəsiz ki, idmanla məşğul olan hər bir gənc həm sağlam olur, həm də asudə vaxtlarını səmərəli keçirir.

"Olimpiya dünyası" qəzeti vaxtaşırı "Olimpiya ümidləri" rubrikası altında yazılar dərc edir. Məhz bu yazılarda perspektivli, Olimpiya Oyunlarında ölkəmizi təmsil etməyə namizəd idmançılar haqqında ətraflı məlumatlar verilir.

Gələcəkdə yüksək uğurlar qazanmağı qarşısına məqsəd qoymuş yeniyetmə idmançılardan biri də Əmrah Yaqubovdur. 2006-cı il oktyabrın 26-da Bakı şəhərində anadan olan Əmrah artıq bir ildir ki, məşqçi Tural Sadıqlının rəhbərliyi altında atletika idman növünün incəliklərinə yiyələnir. Lap kiçik yaşlarından idmana maraq göstərən Əmraha örnək olan insan isə atasıdır. Onun ən böyük arzusu bu sahədə, ən azından, atasının uğurlarını təkrarlamaqdır. Qeyd edək ki, Əmrahın atası Əliağa Yaqubov vaxtilə atletika ilə məşğul olub atletika üzrə 400 m və 800 m məsafəyə qaçış üzrə ikiqat Azərbaycan (1997-1998-ci illər) çempionluğun da qazanıb. O həmçinin futbol üzrə Azərbaycan yığma komandasının da şərəfini qoruyub.



45 saylı orta məktəbin 5-ci sinif şagirdi olan Əmrah da əvvəlcə atası kimi futbol idman növünə maraq göstərsə də, sonradan atletikanı seçib. İdmançı qısa müddət ərzində medal qazanmağa da müvəffəq olub. Belə ki, ötən il keçirilən Respublika Bədən Tərbiyəsi İdman Mərkəzinin təşkilatçılığı ilə 9 noyabr Milli Bayraq Gününə həsr olunmuş klublararası etafet yarışında bürünc medala sahib çıxıb. O, idmanda fərqləndiyi kimi oxuduğu məktəbdə də nümunəvi şagirddir. Belə ki, idmançının nailiyyətləri məktəbin "şərəf lövhəsi"ndə yer alır. İnanırıq ki, idmançımız gələcəkdə də ona bəslənilən etimadı doğruldaraq daha da yüksək nailiyyətlər qazanacaq.

***Aysel Sultanova***

# *Yeni Olimpiya İdman Kompleksinin təməli qoyulub*

Martın 27-də Beyləqan rayonunda yeni Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi keçirilib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Beyləqan rayon İcra hakimiyyətinin başçısı Vaqif Abdullayev, Milli Məclisin deputatı Şahin İsmayılov və digər rəsmilər iştirak ediblər.

Beyləqan Olimpiya İdman Kompleksinin tikintisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.



Nazir Azad Rəhimov çıxışında bildirib ki, sayca 45-ci olan Beyləqan Olimpiya İdman Kompleksində 1000-ə yaxın tamaşaçı tribunası olan, müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal idman, güləş, boks zalları, qrup məşqləri və Trenajor salonu, 180 tamaşaçı tribunası və 24x12 olçüdə üzgücülük hovuzu inşa ediləcəkdir.

Azad Rəhimov qeyd edib: "Bu gün ölkəmizdə 43 OİK fəaliyyət göstərir. Bir müddət əvvəl Tərtərdə sayca 44-cü OİK-in təməli qoyuldu. Bu il Lənkəran OİK-in istifadəyə verilməsi nəzərdə tutulur. Bundan əlavə, Goranboy və Neftçala rayonlarında növbəti OİK-in tikintisinə başlanılıb. Yardımlı rayonunda isə İdman Kompleksinin tikintisi davam etdirilir".

Qeyd edək ki, Azərbayca Respublikasının Prezidenti İlham Əliyevin Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında 23 mart 2018-ci il tarixli müvafiq Sərəncamı ilə vəsait ayrılıb. Kompleksin layihəsi Azərbaycanın "Art Proje" şirkəti tərəfindən hazırlanıb.

Kompleksin tikintisi məqsədi ilə Beyləqan Rayon İcra Hakimiyyəti tərəfindən şəhər stadionunun ərazisindən 2,61 ha torpaq sahəsi ayrılıb.




# Boccia İdman Federasiyasının təqdimatı olub

Milli Olimpiya Komitəsinin inzibati binasında yeni yaradılmış Azərbaycan Boccia İdman Federasiyasının təqdimat mərasimi keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Milli Paralimpiya Komitəsinin sədri İlqar Rəhimov ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğıdan söz açıb. Azərbaycan paralimpiyaçılarının dünya miqyaslı yarışlarda uğurla çıxış etdiklərini vurğulayan İlqar Rəhimov diqqətə çatdırıb ki, ölkəmizdə boccia idmanının yaradılması Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşıb.

Mərasimdə İlqar Rəhimovun təklifi ilə Vüqar Əsgərov Azərbaycan Boccia İdman Federasiyasının vitse-prezidenti seçilib. Boccia idmanı üzrə baş məşqçi vəzifəsində çalışmış İlham Məhərrəmov isə baş katib vəzifəsinə təyin edilib.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov çıxışında Azərbaycan Boccia İdman Federasiyasının yaradılmasının əhəmiyyətini qeyd edib və ona uğurlar arzulayıb. Nazir müavini yeni federasiyanın yaradılmasının ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğının göstəricisi olduğunu bildirib.

Qeyd edək ki, 1984-cu ildə Paralimpiya Oyunlarının proqramına daxil edilən boccia 34 il ərzində 50 ölkədə inkişaf etdirilərək sürətlə məşhurlaşıb. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən 2013-cu ildən ölkəmizdə boccia idman növünün təbliğinə başlanılıb və bu idman növü üzrə milli komanda yaradılıb. Azərbaycan idmanı üçün yenilik olan bu idman növündə ağır kateqoriyalı əlillik dərəcəsi olan uşaqlar, gənclər və yaşlılar güclərini sınaya bilərlər.

# "Zəfər kuboku"nda 20 medal

***Türkiyənin Gebze şəhərində yeniyetmələr arasında keçirilən 21-ci "Zəfər kuboku" adlı beynəlxalq turnir başa çatıb.***

***Ölkəmizi dörd gün ərzində Türkiyədə uğurla təmsil edən sərbəst, yunan-Roma və qadın güləşçilərimiz vətənə 20 (7 qızıl, 5 gümüş və 8 bürünc) medalla qayıdıblar.***

Komandamızın aktivinə 7 (3 qızıl, 2 gümüş və 2 bürünc) medalı sərbəst güləşçilərimiz qazandırıb. Belə ki, Əlihəsən Əmirli (48 kq), Əbülfəz Nəsirov (55 kq) və Turan Bayramov (65 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Fuad Mayılov (80 kq), İslam Abuyev (110 kq) gümüş, Riyad Aslanov (51 kq), Sabir Cəfərov (60 kq) isə bürünc medala sahib olublar. Ümumi nəticədə, sərbəst güləş yığmamız komanda hesabında ikinci yeri tutub. Türkiyə birinci, Rusiya yığması isə üçüncü nəticə göstərib.

Qadın güləşçilərin yarışında da 7 (3 qızıl, 1 gümüş, 3 bürünc) medal əldə olunub. Birgül Sultanova (57 kq), Jalə Əliyeva (61 kq) Nigar Mirzəzadə (65 kq) qızıl, Şahanə Nəzərova (43 kq), gümüş, Ayşən Yusifova (46 kq), Sevinc Əhədova (49 kq), Elnur Məmmədova (61 kq) isə bürünc medalla yarışları başa vurublar. Yeniyetmə qadın güləşçilərimiz də komanda hesabında Türkiyədən sonra ikinci yerdə qərarlaşıb. Rumıniya güləşçiləri isə üçüncü yeri tutublar.

Yunan-Roma güləşçilərimiz isə beynəlxalq turniri 6 (1 qızıl, 2 gümüş və 3 bürünc) medalla başa vurublar. Həsrət Cəfərov (51 kq) turnirin qızıl medalını qazanıb. Qurban Qurbanov (45 kq), Röyal Mirzəliyev (51 kq) gümüş, Murad Abbasov (55 kq), Ruslan Hədisov (65 kq), Laçın Vəliyev (92 kq) isə bürünc medala layiq görülüblər. Beləliklə, yunan-Roma güləşçilərimiz komanda hesabında üçüncü yeri tutublar. Türkiyə birinci, Gürcüstan komandası ikinci olub.

Məlumat üçün bildirək ki, "Zəfər kuboku" beynəlxalq turnirində əldə olunan nəticə aprelin 23-29-da Ukraynanın paytaxtı Kiyevdə keçiriləcək Avropa çempionatı üçün mühüm əhəmiyyətə malik idi.

Bu ilin oktyabrında Argentinanın paytaxtı Buenos-Ayres şəhərində keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziyalar məhz Avropa çempionatında qazanılacaq. Belə ki, yunan-Roma güləşi üzrə 45, 51, 60, 71 və 92 kq, sərbəst güləş üzrə 48, 55, 65, 80 və 110 kq, qadın güləşi üzrə 43, 49, 57, 65 və 73 kq çəkidə qızıl medal alan güləşçilər Olimpiya Oyunlarına birbaşa vəsiqə qazanacaqlar. Reqlamentə əsasən isə, qazanılmış lisenziyaların sayından asılı olmayaraq, hər ölkə güləş növləri üzrə ayrı-ayrılıqda maksimum 2 idmançı ilə təmsil oluna bilər.

# *Ağdamda universal döyüş üzrə beynəlxalq turnir keçiriləcək*

Aprelin 5-dən 8-dək Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin zalında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş universal döyüş üzrə beynəlxalq turnir keçiriləcək.

Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənovdan aldığımız məlumata əsasən yarışda 10 dövlətdən 300-dək idmançı iştirak edəcək. Yeniyetmə, gənclər və böyüklər arasında keçiriləcək yarışda ölkəmizi yığma komandanın üzvləri, eləcə də region idmançıları təmsil edəcəklər. Turnirin açılış mərasimi aprelin 6-da baş tutacaq.

*Xəbərlər*

## Samboçular Bakı birinciliyində qüvvələrini sınayıblar

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Kompleksində 2004-2005-ci illər təvəllüdlü idmançılar arasında sambo üzrə paytaxt birinciliyi keçirilib.



Birincilikdə 11 çəki dərəcəsi üzrə 145 idmançı mübarizə aparıb.

Yarışda bütün çəki dərəcələri üzrə qaliblər müəyyənləşib. İlk üç yeri tutan idmançılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

## XXVI Azərbaycan çempionatı keçiriləcək

Aprelin 7-də Şağan Olimpiya İdman Kompleksində uşu idman növü üzrə XXVI Azərbaycan çempionatına start veriləcək. Gənclər və İdman Nazirliyi və Azərbaycan Uşu Federasiyasının təşkilatçılığı ilə keçiriləcək yarışda əsas məqsəd idmançıların ustalıq dərəcəsinin artırılması, 2018-ci il Avropa çempionatında iştirak edəcək heyətin müəyyənləşdirilməsidir.

Kişi idmançılar sanda və çinda növləri üzrə müxtəlif yaş kateqoriyasında və çəki dərəcələrində medallar uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, çempionata aprelin 8-də yekun vurulacaq.

## Açıq Afrika kuboku yarışlarında uğurlu çıxış

Azərbaycanın triatlon üzrə milli komandası Misirin Şarm Əl-Şeyx şəhərində açıq Afrika kuboku yarışlarında uğurla çıxış edib.




İdmançılarımızdan Rostislav Pevtsov və Kseniya Levkovskaya gümüş medal qazanıblar. Rostislav Pevtsov 37 idmançının mübarizə apardığı yarışda 59 dəqiqə 53 saniyə nəticə göstərib. Yarışın qalibi macarıstanlı Bens Bicak olub.

Qadınların mübarizəsində isə yığmamızın üzvü Kseniya Levkovskaya 1 saat 10 dəqiqə 46 saniyəlik nəticə ilə ikinci pillədə qərarlaşıb.

Azərbaycan komandası yarışda baş məşqçi Sergey Yatsenkonun rəhbərliyi altında mübarizə aparıb.

Qeyd edək ki, Rostislav Pevtsov ötən ay İspaniyanın Las-Palmas şəhərindəki Avropa kuboku yarışlarında da gümüş medal qazanıb.

## "Şən delfin" açıq Bakı birinciliyində qaliblər müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Abşeron Olimpiya İdman Kompleksində üzgüçülük üzrə "Şən delfin" açıq Bakı yaz birinciliyi keçirilib.

Birincilikdə 8 klubu təmsil edən 99 idmançı iştirak edib. Gərgin mübarizə şəraitində keçən yarışda bütün qaliblər müəyyənləşib.

Əlli metr məsafəyə qarışıq və sərbəst üsulla estafet yarışlarında "Sərhədçi" İdman Olimpiya Mərkəzinin idmançıları birinci olublar.

İlk üç yeri tutmuş idmançılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom və medallarla mükafatlandırılıblar.

*Yubiley*

## *Elçin Zeynalov 70 yaşını qeyd edib*

Əməkdar bədən tərbiyəsi və idman xadimi Elçin Zeynalov aprelin 1-də 70 illik yubileyini qeyd edib.

Elçin Zeynalov 1948-ci ildə Gəncə şəhərində anadan olub. 1968-ci ildə S.M. Kirov adına Bədən Tərbiyəsi İnstitutunun qiyabi şöbəsinə daxil olub. Hazırda sərbəst güləş idman növü üzrə məşqçilik fəaliyyətini davam etdirən yubilyar Gəncə şəhər yığma komandasının baş məşqçisi vəzifəsində çalışır. Elçin müəllimin yetirmələri Olimpiya Oyunları, dünya, Avropa çempionatlarının, Dünya kuboku yarışlarının qalibi və mükafatçılarıdır. Təcrübəli məşqçinin yetirməsi Toğrul Əsgərov London-2012 Yay London Olimpiya Oyunlarının qızıl, Rio-2016 Yay Olimpiadasının gümüş medalını qazanıb.



Onun digər yetirmələrindən Abil İbrahimov, Rza Xəlilov, Vüsal Həsənov və Rəhim Əliyevin adlarını çəkə bilərik.

Elçin Zeynalov güləşin inkişafındakı xidmətlərinə görə 1973-cü ildə SSRİ idman ustası, 1989-cu ildə Əməkdar məşqçi adlarına layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə 2008-ci ildə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına, 2012-ci ildə "Şöhrət" ordeninə, 2015-ci ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na və 2016-cı ildə "Tərəqqi" medalına layiq görülüb.

Azərbaycan Güləş Federasiyasının kollektivi Elçin Zeynalovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, gələcək fəaliyyətində uğurlar arzulayır.

***Azərbaycan Güləş Federasiyası***

## Millimiz Rabat sınağında

Aprelin 6-8-də Mərakeş Krallığının paytaxtı Rabatda Karate1 Premyer Liqa yarışı keçiriləcək. Dünya Karate Federasiyasının (WKF) nüfuzlu yarışlar seriyasından olan Rabat mərhələsində böyüklərdən ibarət milli komandamız da mübarizə aparacaq. Millimiz fərdi kata və kumite, eləcə də komanda kata yarışlarında 18 idmançı ilə təmsil olunacaq. Azərbaycan Milli Karate Federasiyasnın prezidenti Yaşar Bəşirovun rəhbərlik etdiyi heyətdə milli komandanın baş məşqçisi Şahin Xudaverdiyev, qadınlardan ibarət milli komandanın böyük məşçqisi Anar Allahverdiyev, məşqçilər Rəşad Hüseynov və Denis Morozov, həmçinin beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kəimov da var.

Qeyd edək ki, Rabat Premyer Liqasında 75 ölkədən 545 idmançı mübarizə aparacaq.

## DİN-in kikboksinqçiləri 12-ci dəfə Respublika kubokuna sahib oldular



Martın 23-26-da İsmayıllı Olimpiya İdman Kompleksində yeniyetmələr və gənclər arasında kikboksinq üzrə Azərbaycan birinciliyi keçirilib. Yarış DİN İdman Cəmiyyətinin komandası üçün uğurlu olub. Yekun nəticədə birinci yeri tutan DİN komandası 12-ci dəfə respublika kubokunun sahibi olub.

Komandanın rəhbəri, ölkəmizin yeniyetmə və gənclərdən ibarət yığmasının baş məşqçisi Hikmət Hacıyev yarışın yüksək səviyyədə keçirildiyini bildirib: "Kikboksinq idman növünün günü-gündən kütləviliyi artır. Yarış çox yüksək səviyyədə keçdi. Ədalətlilik prinsipi qorundu. Fəxr edirəm ki, yetirmələrim növbəti dəfə Resbuplika kubokunun sahibi oldular. Bu qələbə həm də DİN İdman Cəmiyyətinin təmsilçilərinin Azərbaycan Polisinin 100 illiyinə əlamətdar töhfəsidir".

Hikmət Hacıyevin sözlərinə görə, qazanılan nəticələr, həm də ölkəmizdə və daxili işlər orqanlarında idmana, idmançı əməkdaşlara göstərilən diqqət və qayğının əyani təzahürüdür. Bu həm də DİN-in İdman Cəmiyyətində təlim-məşq prosesinin yüksək səviyyədə təşkilindən, təlimlərin daha səmərəli olmasından xəbər verir. DİN İC-nin hər bir üzvü bu diqqət və qayğıya cavab olaraq etimadı doğrultmağı özünə şərəf və borc bilir.

Komandanın rəhbəri bildirib ki, gənclərin narkomaniyadan və pis vərdişlərindən uzaqlaşdırılması və onları sağlam həyat tərzinə cəlb etmək üçün belə idman tədbirlərinin keçirilməsi vacib şərtlərdəndir.

***Zeyni Hüseynov,***
***DİN Mətbuat Xidmətinin əməkdaşı***

## "Shamkir Chess-2018" turnirinin iştirakçıları müəyyənləşib

Azərbaycanın məhrum şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan ənənəvi "Shamkir Chess" super turnirinin iştirakçıları müəyyənləşib. Turnir aprelin 18-dən 28-dək Şəmkirdə keçiriləcək. Ümumilikdə, 10 şahmatçının iştirak edəcəyi yarış dairəvi sistem üzrə 9 turdan ibarət olacaq. "Shamkir Chess-2018"də hazırkı dünya çempionu norveçli Maqnus Karlsen, eks-dünya çempionu rusiyalı Vladimir Kramnik, güclü hollandiyalı şahmatçı Aniş Qiri, çinli Dinq Liren, bolqarıstanlı Veselin Topalov, daha bir rusiyalı Sergey Karyakin mübarizə aparacaqlar. Yarışda Azərbaycanı hazırda dünya reytinqində




ikinci olan Şəhriyar Məmmədyarov, beynəlxalq qrossmeysterlər Teymur Rəcəbov və Rauf Məmmədov təmsil edəcəklər.

Xatırladaq ki, sonuncu iki "Shamkir Chess" turnirinin qalibi Şəhriyar Məmmədyarov olub.



## Cocuq Mərcanlıda "Cəsur ürəklər" adlı festival keçirilib

AFFA-nın təşkilatçılığı ilə martın 27-dən 29-dək Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "Cəsur ürəklər" adlı festival keçirilib.

Layihənin həyata keçirilməsində əsas məqsəd qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar arasında futbolun kütləviliyini artırmaq, uşaqların və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, onlarda futbola və digər idman növlərinə maraq yaratmaq, sağlam həyat tərzini təbliğ etməkdir. Layihəyə əsasən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində 3 gün ərzində fərdi inkişaf treninqləri, futbol turniri, müxtəlif əyləncələr təşkil olunub. Festivalda 200-ə yaxın uşaq və yeniyetmə iştirak edib.

Bundan başqa, 3 ayda bir dəfə olmaq şərtilə mini-turnir keçiriləcək. Layihə çərçivəsində Cocuq Mərcanlı kəndinin sakinlərinə idman ləvazimatları təqdim ediləcək. Həmçinin, burada AFFA tərəfindən süni örtüklü futbol meydançası inşa olunacaq. İnşaat xərclərini AFFA-nın irəli sürdüyü layihəni müsbət dəyərləndirən UEFA Children Foundation ödəyəcək.

Qeyd edək ki, AFFA-nın ötən ilin sonlarında irəli sürdüyü "Brave Hearts" (Cəsur ürəklər) adlı layihə UEFA-nın Uşaq Fondu (UEFA Children Foundation) tərəfindən təsdiq olunub.



## "Neftçi idman klubu" İB

### Güləş

"Neftçi İdman Klubu"nun yunan-Roma güləşçisi Rəsul Çunayev Bolqarıstanın paytaxtı Sofiyada keçirilən güləş üzrə 56-cı "Dan Kolov - Nikola Petrov" beynəlxalq turnirində qızıl medala sahib olub. 72 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən pəhləvanımız mübarizəyə səkkizdəbir finaldan başlayıb. O, Polşa və Rumıniya təmsilçilərini vaxtından əvvəl təmiz qələbə ilə məğlub edərək yarımfinala yüksəlib. Bu mərhələdə Türkiyə idmançısı üzərində də qələbə qazanan Rəsul Çunayev finala vəsiqəni təmin edib. Həlledici görüşdə fransalı rəqibini vaxtından əvvəl məğlub edən klubumuzun yetirməsi fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.




### Ağırlıqqaldırma

Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı kişilər, qadınlar və ustadlar arasında təşkil olunan yarış Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının idman zalında təşkil olunub.

Klubumuzun təmsilçisi Asxab Kalayev (+105 kq) kişi ağırlıqqaldıranların yarışında gümüş medala layiq görülüb. İdmançımız iki hərəkətin cəmində 295 kiloqram ağırlığın (135 kq+160 kq) öhdəsindən gəlib.

### Kikboksinq

İsmayıllı Olimpiya İdman Kompleksində gənclər və yeniyetmələr arasında kikboksinq üzrə Azərbaycan birinciliyi keçirilib.

İyirmi beş komandanı təmsil edən idmançıların qatıldığı yarışda klubumuzun yeniyetmə kikboksçuları da qüvvələrini sınayıblar. Əzmlə vuruşan idmançılarımız 5-i qızıl, 4-ü gümüş və 3-ü bürünc olmaqla, ölkə birinciliyinin 12 medalını əldə ediblər. Onlardan Əli Atayev (45 kq), Emin Əliyev (48 kq), Vüsal Kazımov (54 kq), Elşad Şahbazov (67 kq) və Elcan Alkişiyev (75 kq) bütün döyüşləri qələbə ilə başa vuraraq Azərbaycan çempionluğunu bayram ediblər.

Qeyd edək ki, yeniyetmə kikboksçularımız komanda hesabında birinci yeri tutublar.

### Futbol

Futbol üzrə Azərbaycan I Divizionunda XXI turun oyunlarına start verilib. "Qaradağ Lökbatan" komandası bu tur çərçivəsində "Binə"nin qonağı olub. Binə qəsəbə stadionunda keçirilən qarşılaşmanın ilk hissəsində qapılara qol vurulmayıb. Fasilədən sonra hücumlarının kəsərini bir qədər də artıran komandamız 69-cu dəqiqədə Ruslan Tağızadənin vurduğu qolla önə keçib. "Binə"nin futbolçusu Seymur Abdullayev 83-cü dəqiqədə hesabı bərabərləşdirib - 1:1. Cəmi iki dəqiqə sonra komandamız yenidən hesabda önə keçib. Bu dəfə Əliqulu Manafov adını tabloya yazdırıb. Lakin son anda "Qaradağ Lökbatan" qələbəni əldən verib. Oyunun əsas vaxtına əlavə olunmuş artırma dəqiqələrində (90+2) rəqib komandanın futbolçusu Vüsal Səfərov bərabərlik qolunu vurub - 2:2.

***"Neftçi İdman Klubu" İctimai Birliyinin***
***mətbuat xidməti***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# İdman həm fiziki, həm də zehni inkişafı təmin edir

***İdman hər bir ölkəni bütün dünyada tanıdan əsas vasitələrdən biridir. Bir sıra nüfuzlu, beynəlxalq yarışlarda müxtəlif növlərdə uğur qazanan idmançılar fəxri kürsüdə yer almaqla yanaşı, həm də təmsil etdikləri ölkənin bayrağını dalğalandırırlar. İdmanın əhəmiyyəti yalnız bununla məhdudlaşmır. O, həm də sağlamlıqdır. İdman bədəni formalaşdırır, qaməti düzəldir, qan-damar sisteminin fəaliyyətini normaya salır. Sağlam həyat tərzinin keşiyində isə ilk növbədə idman ocaqları dayanır. Ölkəmizdə də bu sahənin inkişafı diqqət mərkəzindədir. Bu gün paytaxtımızda və bölgələrdə onlarla idman klubları, məktəblər, cəmiyyətlər yeniyetmə və gənclərin ixtiyarına verilib. Həmçinin bütün orta və ali təhsil müəssisələrində şagird və tələbələrin idmanla məşğul olması üçün hərtərəfli şərait yaradılıb.***



Ölkənin qocaman ali təhsil ocaqlarından olan Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) gənc nəslin təlim-tərbiyəsi işi yüksək səviyyədə qurulub. Universitetdə gənclərin fiziki və mənəvi cəhətdən sağlamlığı məsələsinə böyük diqqət yetirilir. Bu vaxta qədər 100 mindən artıq ali təhsilli müəllim hazırlayan universitetin əsası 1921-ci ildə qoyulub. Azərbaycanın bir çox ziyalıları, eləcə də, ədəbiyyat, maarif və mədəniyyətin inkişafında böyük rolu olan Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Zahid Xəlilov və digərləri məhz adıçəkilən universitetin məzunları sırasındadırlar.

Bu gün ali təhsil ocağında 8 müxtəlif fakültədə 7 minə yaxın tələbə təhsil alır. Onlardan biri də musiqi, təsviri-incəsənət, fiziki-tərbiyə və Çağırışaqədərki Hərbi Hazırlıq (ÇHH) fakültəsidir. Buyaxınlarda universitetin idman həyatı ilə tanış olmaq üçün təhsil müəssisəsinin adıçəkilən fakültəsinə yollandıq. Burada bizi fakültənin dekanı Laçın Həsənova qarşıladı. Müsahibimizlə ali məktəbin idman həyatı ilə bağlı söhbət etdik. Laçın Həsənovanın bildirdiyinə görə, universitetdə gənclər, xüsusilə oğlanlar arasında idmana maraq kifayət qədər çoxdur. Ali məktəbi təmsil edən idmançılar müxtəlif yarışlarda müntəzəm olaraq uğur qazanırlar. Laçın xanım həmçinin universitetin rektoru, professor Cəfər Cəfərovun tələbələrə dəstəyindən danışdı. Onun sözlərinə görə, rektor müxtəlif məsələlərdə daim tələbə-idmançılara dəstək olur, onların qayğıları ilə yaxından maraqlanır. "Cəfər müəllim həmişə universitet kollektivinə, o cümlədən idmançılara dəstək olur. Düşünürəm ki, əldə olunan bütün uğurlarda onun böyük rolu var. Onu da vurğulayım ki, bizim fakültənin idmanı, musiqini, təsviri incəsənəti və hərb sənətini təbliğ edən üç bəndlik xüsusi himni var. Bu, tələbələrə əlavə stimul verir, onları ruhlandırır", - deyə Laçın Həsənova əlavə etdi.



Məlumat üçün bildirək ki, adıçəkilən fakültədə "musiqi müəllimliyi" ixtisası 1964-cü ildən, "hərbi rəhbər və bədən tərbiyəsi" ixtisasları isə 1981-ci ildən fəaliyyət göstərir. Universitetin elmi şurasının 2015-ci il 9 oktyabr tarixli qərarı ilə musiqi və təsviri incəsənət fakültəsi yaradılıb. Həmin fakültə 2016-cı ildə "fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi metodikası" kafedrasının musiqi və təsviri incəsənət fakültəsinin tərkibinə verilib. Laçın Həsənovanın sözlərinə görə, musiqi, təsviri-incəsənət, fiziki tərbiyə və Çağırışaqədər Hərbi Hazırlıq fakültəsi də elə həmin ildə təsis edilib: "Fakültədə müxtəlif ixtisaslarda dərs keçən müəllimlər sırasında görkəmli xalq artistləri, musiqişünaslar, Böyük Vətən Müharibəsinin veteranları da var. Fakültədə müxtəlif ixtisaslar üzrə daxili müsabiqələr keçirilir. Müsabiqənin qaliblərini isə xüsusi hədiyyələrlə mükafatlandırırıq ki, bu da tələbələri daha çox həvəsləndirir".

Sonra ali məktəbin idman klubunun sədri, sərbəst güləş üzrə idman ustası, əməkdar məşqçi, əməkdar bədən tərbiyəsi və idman xadimi, dosent Gülbaba Quliyevlə görüşdük. Gülbaba müəllimin bildirdiyinə görə, hazırda hər kursdan 70 tələbə olmaqla fakültədə ümumilikdə, 280 gənc təhsil alır: "Tələbələr arasında idmana maraq var. Gənclər, o cümlədən tələbələr idmanla daha yaxından məşğul olmalı, öz sağlamlıqlarının qayğısına qalmalıdırlar. Açığını deyim ki, idmanla məşğul olan tələbələrin sayı bizi qane etmir. Yaxşı olardı ki, fakültəyə qəbul şərtləri yüngülləşdirilsin və tələbələrin sayı artsın. Nəzərə almaq lazımdır ki, biz müharibə şəraitində yaşayırıq və gənclərimiz sabahın əsgərləridirlər. Onlar fiziki hazırlıqlı olmaqla yanaşı, həm də hər an vətənin müdafiəsinə hazır olmalıdırlar".

Bir neçə il əvvəl bütün ali təhsil məktəblərinin idman strukturunda ciddi dəyişiklik baş verdi. Belə ki, yeni qanuna əsasən, idman kafedraları klublarla əvəz olundu. Bəs, görəsən, bu yenilik universitetin tələbə-idmançıları tərəfindən necə qarşılandı, idmanın kütləviliyinə necə təsir etdi? Bu barədə Gülbaba Quliyevin fikirlərini öyrəndik. Təcrübəli mütəxəssis bizimlə söhbətində təhsil sahəsindəki bu yeniliyin o qədər də uğurlu olmadığını söylədi. "Kafedralar klublarla əvəz edildikdən sonra universitetin idman həyatındakı kütləvilik bir qədər azaldı. Bildiyimiz kimi, klubların səciyyəvi əlamətlərindən biri burada könüllülük prinsipinin əsas götürülməsidir. Yəni, tələbə istəsə məşqə gələr, istəməsə gəlməz. Amma sağlamlıq istəklə olmur axı... Əvvəllər tələbələr digər dərslər kimi, idman dərslərində də məcburi iştirak edirdilər. Çünki tələbə ilə müəllim arasında bir asılılıq var idi. Tələbə bilirdi ki, dərsdə iştirak etməsə qiymət almayacaq. Yəni, o, qiymət xətrinə olsa da, idmanla məşğul olur, öz sağlamlığının, fiziki hazırlığının qayğısına qalırdı. İndi tələbələrə sərbəstlik verilib. Ona görə də, idmana daha çox həvəsi olan gənclər bu sahə ilə məşğul olurlar. Axı, idmanı peşəkar şəkildə hər kəs sevə bilməz", - deyə o əlavə etdi.

Professor, sərbəst güləş üzrə məşqçi Əli Mehdiyevin də bu məsələyə münasibəti fərqli deyil. Əli müəllimin fikrincə, kafedraların klublarla əvəz olunması kütləviliyə mənfi təsir göstərir: "İdman kafedralarının klublarla əvəz olunmasının bir üstün cəhəti odur ki, bu sahə ilə yalnız idmana həvəsi olan tələbələr məşğul olurlar. Yəni, həmin tələbələr vaxt keçirmək üçün deyil, bu sahədə uğur qazanmaq üçün idmanı seçirlər. Əslində isə həvəskar formada hər kəs, peşəkar şəkildə isə həvəs və marağı çox olan tələbələr məşğul olmalıdırlar. Əvvəllər burada tanınmış idmançılar, SSRİ, dünya, Avropa çempionatlarının qalib və mükafatçıları yetişib. Həmin vaxtlarda kütləvilik daha çox idi. Yüzlərlə idmançıdan cəmi bir neçəsi mübariz olub, axıra kimi gedir, öz məqsədinə çatırdı".

## Universitetdə futbolu daha çox sevirlər

Söhbət zamanı Gülbaba müəllim universitetdə idmanın kütləviliyinin azalmasının digər səbəbini də açıqladı: "Son vaxtlar yeniyetmə və gənclər idmanla fərdi şəkildə məşğul olmağa üstünlük verərək daha çox trenajor zallarına üz tuturlar. Düzdür, bu da sağlamlıq və fiziki hazırlıq üçün yaxşı üsuldur. Lakin bir məşqçinin nəzarəti altında idmanla məşğul olmaq və eyni zamanda konkret növün nəzəriyyəsini öyrənmək ikiqat faydalıdır".

Universitetin idman klubunda 8 müxtəlif növ üzrə 5 məşqçi-müəllim tərəfindən məşqlər keçirilir. Həmsöhbətimiz bildirdi ki, həmin bölmələrdə məşq keçən müəllimlər kifayət qədər təcrübəyə malikdirlər. Tələbələr arasında hər bir növə maraq olsa da, futbol daha kütləvi hal alıb. Bunun təsadüfi olmadığını deyən dosent qeyd etdi ki, futbol bütün istənilən növlə məşğul olanlar üçün vacibdir. Çünki futbol hissiyyatı gücləndirir, cəldliyi artırır.

## Universitetin məzunları arasında milli qəhrəmanlar da var

Müşahidələr göstərir ki, idmanla məşğul olan gənclər, həm də vətənpərvər ruhda böyüyürlər. Onlarda torpaq, bayraq təəssübkeşliyi digərlərinə nisbətən daha çox olur. Bu barədə danışan idman klubunun müdiri bildirdi ki, bu, heç də təsadüfi deyil. Belə ki, yaxşı, bacarıqlı idmançı tədricən beynəlxalq arenalarda ölkəni təmsil edir. O, təkcə əziyyətinin hədər getməməsinə görə yox, həm də ölkəsinin himninin səsləndirilməsi, bayrağının dalğalandırılması üçün mübarizə aparır. Elə biz məşqçilər də müxtəlif üsullarla öz yetirmələrimizdə vətənpərvərlik hissini artırmağa çalışırıq. Onlara vətən uğrunda canlarından keçən şəhidlərimiz haqqında danışır, milli qəhrəmanlarımızı nümunə göstəririk. Təcrübələr də göstərir ki, ürəyində vətən eşqi olan idmançı bir çox hallarda fiziki cəhətdən özündən üstün olan rəqibi üzərində qələbə qazanır. Bu haqda ətraflı danışan Gülbaba Quliyev, həmçinin bildirdi ki, universitetdə İdman və Gənclərin Çağırışaqədərki Hərbi Hazırlığı ixtisasına yiyələnən məzunların arasında 18 şəhidimiz var. Onlardan ikisi - Mətləb Quliyev və Mirələkbər İbrahimov Azərbaycanın Milli Qəhrəmanıdır.

Ali təhsil ocağında həm rəhbərlik, həm məşqçi-müəllimlər, həm də həvəsli tələbələr idmanın daha da inkişafına, kütləviləşməsinə xüsusi diqqətlə yanaşırlar. Onlar bu məqsədlə müxtəlif layihələr həyata keçirirlər. Həmin təşəbbüslərdən biri də asudə vaxtın səmərəli keçirilməsi üçün müəllimlər arasında şahmat, dama və nərd yarışlarının keçirilməsidir. Gülbaba müəllim qeyd etdi ki, idmanla, o cümlədən şahmatla məşğul olmaq müəllimlər üçün də vacibdir. Belə olan halda onlar gün ərzində gümrah olurlar. Həm də tələbə-idmançılar öz müəllimlərindən nümunə götürürlər. Tələbələr başa düşürlər ki, əgər mənim müəllimim idmanla məşğul olursa, bu, həqiqətən, faydalıdır.

## Təkmübarizlik idman növləri daha çox inkişaf edib

Universitetin idman nailiyyətlərindən danışarkən müsahibimiz vurğuladı ki, tələbə-idmançılar müxtəlif yarışlarda, o cümlədən universiada və spartakiadalarda ali məktəbi layiqincə təmsil edirlər. Adıçəkilən ali təhsil müəssisəsinin tələbələrinin şahmat, güləş və cüdo növlərində uğurları daha çoxdur. Əməkdar bədən tərbiyəsi və idman xadimi vurğuladı ki, nəinki ADPU-da, eləcə də, digər müəssisələrdə təkmübarizlik növləri daha çox inkişaf edib. Bundan fərqli olaraq komanda idman növlərində nəticələr arzuolunan səviyyədə deyil. Gülbaba Quliyevin fikrincə, bunun səbəbi komanda idman növlərində hər kəsin fərqlənməyə can atması və legionerlərə çox yer verilməsidir. "Əgər diqqətlə fikir versəniz, görərsiniz ki, komanda idman növlərində, o cümlədən futbol, basketbol, voleybolda idmançıların hər biri fərqlənməyə çalışırlar. Nəticədə onlar bir-birlərinə mane olur və bir çox hallarda 100 faizlik imkanı əldən verirlər. Elə, yəqin, bu səbəbdən də komandalara legionerlər dəvət olunur ki, bu da doğru addım deyil", - deyə o əlavə etdi.

Universitetin idmanda qazandığı müvəffəqiyyətlərdən danışan Gülbaba müəllim söylədi ki, həm əvvəlki dövrlərdə, həm də indi təhsil məbədinin layiqli məzunları, yetirmələri olub. Məsələn sərbəst güləş üzrə Avropa çempionatının ikiqat gümüş mükafatçısı, dünya kubokunun qalibi və Olimpiya çempionu Toğrul Əsgərovun şəxsi məşqçisi Elman Əsgərov, habelə sərbəst güləş üzrə SSRİ çempionu Muxtar Novruzov bu universitetin yetirmələridir. Həmçinin onu da qeyd etmək istəyirəm ki, hazırda sərbəst güləş üzrə respublika çempionu Ruslan Aslanov, cüdo üzrə respublika çempionatının qalibi Əbdülcəlal Hüseynov bu universitetdə təhsil alırlar.

Hazırda bütün ali təhsil müəəssisələrində Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) fəaliyyət göstərir. THİK tələbələrin problemləri ilə maraqlanır, onların universitetdaxilindəki rifahını yaxşılaşdırmaq üçün çalışırlar. Əməkdar məşqçi bu komitənin tələbə-idmançıların həyatındakı rolunu yüksək qiymətləndirir. "Tələbə Həmkarlar Təşkilatı Komitəsi bizə, həqiqətən, çox kömək olur. Bir çox daxili yarışlarımızı məhz bu təşkilatın xətti ilə keçiririk. Fürsətdən istifadə edib, universitetimizdə təhsil alan bütün tələbələr kimi, idmançılara da xüsusi diqqət və qayğı göstərən rektorumuz, professor Cəfər Cəfərova öz təşəkkürümüzü bildiririk. O, doğrudan da, bizə çox dəstək olur. Bəlkə də, Cəfər müəllimin dəstəyi olmasa idi, biz bu nəticələri qazana bilməzdik", - deyə Gülbaba müəllim əlavə etdi.

## İdmançıda fiziki, texniki-taktiki və psixoloji hazırlıq paralel inkişaf etməlidir

Hər bir sahədə uğur qazanmaq üçün özünəinam, psixoloji hazırlıq əsas şərtlərdən biridir. Bu, idmanda da belədir. Mütəxəssislər təsdiq edirlər ki, çempion olan, fəxri kürsüdə yer tutan idmançının psixoloji hazırlığı yerində olmalıdır. Maraqlıdır ki, idmançı üçün daha çox fiziki, texniki-taktiki və ya psixoloji hazırlıq əsas götürülməlidir? Əməkdar məşqçinin bu barədə də fikirlərini öyrəndik. O, bildirdi ki, idmançı üçün psixoloji hazırlıq çox vacib olsa da, texniki-taktiki və fiziki hazırlıq heç də ondan az əhəmiyyətli deyil: "İdmançı o vaxt peşəkar olur ki, onda fiziki, psixoloji və texniki-taktiki hazırlıq bərabər səviyyədə inkişaf etsin. Əgər sadaladıqlarımızın hansı birindəsə çatışmazlıq olarsa, bu, mütləq idmançının çıxışında öz mənfi təsirini göstərəcək. Lakin əsas məqam ondan ibarətdir ki, idmançı özü fiziki hazırlığını, hətta müəyyən qədər texniki-taxtiki hazırlığını da gücləndirə bilər. Lakin təbii ki, psixoloji hazırlıq üçün ona təcrübəli mütəxəssis lazımdır. Həm də idmançı hiss etməlidir ki, ona inanan insanlar var".

## Tələbələr həm təhsildə, həm də idmanda uğur qazanırlar

Adətən belə düşünürlər ki, idmançıların təhsil sahəsindəki fəaliyyətləri uğursuz olur. Eyni zamanda əlaçı şagird və tələbələr idmanla məşğul olmurlar. Təcrübəli mütəxəssisin bu məsələyə münasibəti də maraqlı oldu. Həmsöhbətimiz düşünür ki, kamil insan o insandır ki, onda həm zehni, həm də fiziki hazırlıq inkişaf etsin. Düzdür, bəzən deyirlər ki, bir uşaq həm təhsildə, həm də idmanda uğur qazana bilməz. Fikrimcə, bu, Sovet dövrünün düşüncəsidir və heç də doğru deyil. Quşa uçmaq üçün iki qanad lazımdır. Eləcə də, insanda mükəmməl olması üçün gərək iki əsas amil - bilik və fiziki sağlamlıq vəhdət təşkil etsin. Qeyd edim ki, bütün fakültələr kimi, xüsusi qabiliyyət tələb edən fakültərə də qəbul test üsulu ilə aparılır. Yəni abituriyentin biliyi yoxlanılır. Lakin digər ixtisaslardan fərqli olaraq, xüsusi qabiliyyət tələb edən ixtisaslarda, o cümlədən bizim ixtisasda hər düzgün cavab 4 balla yox, 1 balla hesablanır. Əgər tələbə 70 bal toplayıbsa, bu, başqa bir ixtisas üçün imtahan verən abituriyentin 280 balına bərabərdir. Yəni, bu nəticəni normal hesab etmək olar. Məntiqlə düşünsək, 280 bal toplayan tələbə savadsız ola bilməz. Sadəcə o, idmana meyillidir ki, bu da çox yaxşı haldır. Bir də bir faktı nəzərə çatıdırım ki, hər kəs yaxşı oxuya, təhsil ala bilər amma hamı yaxşı idmançı ola bilməz. Bu, xüsusi əzmkarlıq, dəyanət tələb edir", - dosent bu sözlərlə fikrini yekunlaşdırdı.

Gülbaba müəlllimlə söhbətdən sonra yuxarıda adını çəkdiyimiz idmançı-cüdo üzrə respublika çempionu Əbdülcəlal Hüseynovla əlaqə saxladıq və fikirlərini öyrəndik. Əbdülcəlal bildirdi ki, o, universitetin musiqi, təsviri-incəsənət, idman və gənclərin Çağırışaqədərki Hərbi Hazırlıq fakültəsində hərbi rəhbər və idman ixtisasına yiyələnir. Uzun illərdir ki, cüdo ilə məşğul olan idmançı həm universitetdə Gülbaba müəllimin rəhbərliyi ilə, həm də 13 nömrəli İOUGİM-də məşqlərini davam etdirir. Qazandığı uğurlara görə məşqçilərinə minnətdar olan idmançı bildirdi ki, ali təhsil müəssəsində idmanla məşğul olmaq üçün kifayət qədər lazımi şərait var. Əsas odur ki, tələbələr həvəskar olsunlar və ən azından öz sağlamlıqlarının qayğısına qalsınlar.

Göründüyü kimi, ADPU-da idmana və bədən tərbiyəsinə qayğı, gənclərin fiziki və mənəvi inkişafı məsələsi xüsusi diqqətdə saxlanılır. Hər kəs öz üzərinə düşən vəzifəni başa düşür və öz işinin öhdəsindən layiqli şəkildə gəlməyə çalışır. İnanırıq ki, sabahın müəllimlərini yetişdirən bu ali təhsil müəssisəsinin idman sahəsindəki uğurları gələcəkdə daha da çox olacaq.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Gimnastika

Bədii gimnastika üzrə milli komandamızın üzvləri Latviyada "Riga spring" beynəlxalq turnirində uğurla çıxış ediblər. Bədii gimnastımız Dərya Farşbafşəhriyari gənclər arasında yarışda halqa ilə icra etdiyi hərəkətə görə, 14,550 xal alaraq fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb. D.Farşbafşəhriyarinin növbəti çıxışı isə ona gümüş medal qazandırıb. İdmançımız topla çıxışda 15,550 xal toplayaraq yalnız Ukrayna gimnastından geri qalıb. Bununla da kifayətlənməyən D.Farşbafşəhriyari komanda yoldaşı Arzu Cəlilova ilə birgə komanda yarışlarında da medal qazanıb. Bu dəfə gimnastlarımız fərdi proqramda çıxışlarının ümumi nəticələrinə əsasən, bürünc medala layiq görülüblər.

* * *

Riqadakı Olimpiya İdman Mərkəzində bədii gimnastika üzrə ənənəvi "Baltik halqası" yarışları keçirilib. 19-cu dəfə keçirilən turnirdə 18 ölkənin idmançıları iştirak ediblər. Azərbaycan gimnastı Zöhrə Ağamirova gürzlə hərəkətlərdə ikinci yeri tutub.

* * *

Bədii gimnastika üzrə qrup hərəkətləri komandamız Fransanın Tiye şəhərində keçirilən ənənəvi Qran-Pri yarışlarında çoxnövçülük proqramında bürünc medal qazanıb. 16 ölkənin iştirak etdiyi turnirdə Aliyə Paşayeva, Siyana Vasileva, Diana Doman, Ayşən Bayramova, Zeynəb Hümmətova və Ayna Cəfərovadan ibarət qrupumuzun ilk icra etdiyi 3 top, 2 iplə kompozisiya onlara 15,050 xal qazandırıb.

Növbəti çıxışlarını daha uğurla yerinə yetirən bədii gimnastlarımız 5 halqa ilə kompozisiyaya görə isə hakimlərdən 17,050 xal almağa müvəffəq olublar. Bununla da iki hərəkətin yekununda hesabına 32,100 xal yazdıran komandamız yalnız İtaliya və Ukrayna təmsilçilərindən geri qalaraq, fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

* * *

Martın 15-18-də Bakıda idman gimnastikası üzrə Dünya kuboku yarışları keçirilib. Milli Gimnastika Arenasında təşkil olunan yarışlarda 24 ölkədən 100-dən çox gimnast qüvvəsini sınayıb.

Azərbaycanı Dünya kuboku yarışlarında kişilər arasında Murad Ağarzayev, Timur Bayramov və Bense Talas, qadınlar arasında isə Yuliya İnşina, Marina Nekrasova və Mariya Smirnova təmsil ediblər.

Qadınların mübarizəsində dayaqlı tullanma yarışında təmsilçimiz Marina Nekrasova (14,216 xal) gümüş medala sahib olub. Digər gimnastımız Yuliya İnşina (13.466 xal) dördüncü pillədə qərarlaşıb.

## Cüdo

Türkiyənin Antalya şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları keçirilib. Azərbaycan cüdoçuları beynəlxalq turnirdə 1 qızıl, 3 gümüş və 1 bürünc medala sahib olublar.

Millimizin üzvlərindən Vüsalə Kərimova (44 kq) qızıl medala layiq görülüb. Oğlanların mübarizəsində İbrahim Ağakişiyev (81 kq), Yaqub İsmayılzadə (90 kq) və Toğrul Salmanov (+90 kq) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətləniblər. Komandamıza bürünc medalı isə Səbinə Əliyeva (48 kq) qazandırıb.










## Güləş

İranın Mazandaran vilayətinin Behşəhr şəhərində güləş üzrə Şəhid Həşim Nejad Kuboku uğrunda beynəlxalq turnir keçirilib.

Gürcüstan, Rusiya, Ermənistan və İran komandalarının iştirak etdiyi turnirdə sərbəst güləş üzrə gənclərdən ibarət yığma komandamızın üzvləri də mübarizə aparıblar. Yarışda 10 güləşçimiz qüvvəsini sınayıb. Təmsilçilərimiz turniri 2 qızıl, 1 gümüş və 5 bürünc medalla başa vurublar. Pəhləvanlarımızdan Davud İbrahimov (70 kq) və Orxan Abbasov (79 kq) bütün rəqiblərindən üstün olub və turnirin qızıl medalını qazanıblar. Yalnız final görüşündə uduzan Alimaqomed Alixmayev (97 kq) gümüş medalla kifayətlənib.

Ən aşağı çəki dərəcəsində Əsgər Məmmədəliyev (57 kq) bürünc medal qazanıb. Digər bürünc medalları isə yığmamıza Elmar Kazımov (65 kq), İsmayıl Abdullayev (74 kq), Asxab Həmzətov (92 kq) və Rahid Həmidli (125 kq) qazandırıblar.

Yığmamız bu nəticə ilə komanda hesabında ikinci yeri tutub.

* * *

Bolqarıstanın paytaxtı Sofiyada güləş üzrə 56-cı "Dan Kolov - Nikola Petrov" beynəlxalq turniri keçirilib. Yarışda Azərbaycan pəhləvanları da güclərini sınayıblar. Yunan-Roma güləşçilərimiz turnirdə 1 qızıl və 1 bürünc medal qazanıblar. Təmsilçilərimizdən Rəsul Çunayev (72 kq) qızıl, qadın güləşçimiz Elis Manolova (65 kq) bürünc medala sahib çıxıblar. Turnirin sonuncu günündə isə yunan-Roma güləşçimiz Elman Muxtarov (67 kq) bürünc, qadın güləşçimiz Mariya Stadnik (50 kq) isə qızıl medala layiq görülüblər.

## Taekvondo

Bolqarıstanın paytaxtı Sofiyada taekvondo üzrə beynəlxalq turnir keçirilib. Yarışda altı idmançı ilə mübarizə aparan gənclərdən ibarət Azərbaycan yığması bir qızıl və bir bürünc medala sahib olub.

Komandamızın üzvü Xanoğlan Kərimov (51 kq) "G1" kateqoriyalı turnirdə rəqiblərindən üstün olaraq qızıl medala layiq görülüb. Onun komanda yoldaşı Bəhruz Quluzadə (48 kq) isə yarımfinaladək irəliləsə də, həlledici mərhələyə yüksələ bilməyib və bürünc medalla kifayətlənib.

* * *

Taekvondo üzrə "Ukrayna Open" beynəlxalq turniri keçirilib.

23 idmançı ilə G1 kateqoriyalı yarışda mübarizə aparan böyüklərdən ibarət milli komandamız 3 qızıl, 1 gümüş və 6 bürünc medal qazanıb.

Turnirin ilk günü Qaşım Maqomedov (58 kq) yarışın qalibi olub, Məcid Sofiyev (54 kq) və Şəms Həsənova (62 kq) isə bürünc medal qazanıblar. Yarışın sonuncu günü də millimiz üçün uğurlu olub. Komandamızın yeddi üzvü fəxri kürsüyə qalxıb. Qadın taekvondoçularımızdan Fəridə Əzizova (67 kq) və Patimat Abakarova (53 kq) yarışı qızıl medalla başa vurublar. Radik İsaev (87 kq-dan yuxarı) isə həlledici döyüşdə məğlub olaraq gümüş medala kifayətlənib. Millinin digər üzvlərindən Məhəmməd Məmmədov (68 kq), Ramin Əzizov (87 kq), Rufina Əlizadə (53 kq) və Elvarə Cəlilova (73 kq-dan yuxarı) bürünc medal qazanıblar.

## Karate

Hollandiyada "Karate-1" Premyer Liqa turniri keçirilib. Ümumilikdə 74 ölkədən 683 idmançının iştirak etdiyi yarışda Azərbaycan karateçiləri də mübarizə aparıblar. Karate üzrə Azərbaycan milli komandasının üç üzvü turnirdə bürünc medal qazanıb.

Təmsilçilərimizdən Firdovsi Fərzəliyev (60 kq), Rafael Ağayev (75 kq) və Ayxan Mamayev (85 kq) turniri üçüncü pillədə başa vurublar.

* * *

Karate üzrə 14-15 yaşlı yeniyetmələrdən ibarət milli komandamızın üzvlərindən son Avropa çempionatının mükafatçıları Polina Hurenko (47 kq) və Mədinə Sadıqova (48 kq), eləcə də Elmir Aşurov (55 kq) müxtəlif yarışlarda fəxri kürsüyə qalxıblar.

P.Hurenko Bratislavada 38-ci Slovakiya Qran-Prisinin qızıl medalına sahib olub. M.Sadıqova və E.Aşurov isə İstanbulda 31-ci "Boğaziçi" beynəlxalq turnirinin bürünc medallarını qazanıblar.







# Mart ayının yekunu "Olimpiya dünyası"-nın təqdimatında

## Boks

Litvanın paytaxtı Vilnüsdə gənc boksçular arasında Dan Poznyakın xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnir keçirilib. 13-cü dəfə keçirilən yarışda Azərbaycan millisi 7 medal qazanıb.

Təmsilçilərimizdən Nurlan Səfərov (60 kq) qızıl, Nəbi İsgəndərov (56 kq) və Zaur Musayev (81 kq) gümüş medala layiq görülüblər. Maqsud Xasmətov (49 kq), Həsən İbrahimov (52 kq), Nicat Həsənov (69 kq) və Məhəmməd Yusifov (75 kq) üçüncü yeri tutublar.

Yığmamız komanda hesabında ikinci olub.

## Üzgüçülük

Slovakiyanın Jilina şəhərində üzgüçülük üzrə yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya xarakterli açıq birincilik keçirilib.

Yarışda ölkəmizi 9 üzgüçü təmsil edib. Milli komandamızın üzvü Maksim Şemberev müxtəlif üsulla üzgüçülük yarışlarında 4 qızıl və 1 gümüş medal qazanıb. Həmçinin idmançımız turnirin rekordunu da yeniləyib. Digər üzgüçümüz Fatimə Alkaramova isə 3 qızıl və 2 bürünc medal əldə edib. Yığmamızın üzvləri Ayan Kələntərova 1 qızıl, 4 gümüş, Alsu Bayramova 2 qızıl, 1 bürünc, Ramil Vəlizadə 3 gümüş, Rəşad Əlquliyev gümüş və Vəli İsrafilov isə bürünc medala yiyələniblər.

## Stolüstü tennis

Tunisdə stolüstü tennis üzrə gənclərin Olimpiya Oyunlarına Avropa təsnifat turniri təşkil edilib. Turnirdə müxtəlif ölkələrdən 25 oğlan və 18 qız tennisçi iştirak edib. Yarışda mübarizə aparan tennisçimiz Yu Xinhangin bütün rəqiblərini qalib gələrək Buenos-Ayresdə təşkil olunacaq gənclərin Olimpiya Oyunlarına lisenziya qazanıb.

* * *

2019-cu il Avropa Komanda çempionatında iştirak hüququ qazanmaq üçün yığma komandamız ev sahibi və səfərdə olmaqla 6 seçmə oyunda iştirak edəcək. Kişilərdən ibarət yığmamız Litva, San Marino və İrlandiya komandaları ilə görüşəcək.

San-Marinoda səfərdə olan kişi yığma komandamız növbəti seçmə oyunda qələbə qazanıb.

## Şahmat

Rusiyanın paytaxtı Moskvada Mixail Talın xatirəsinə həsr olunmuş beynəlxalq şahmat turniri keçirilib. Rapid yarışlarında

Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov 5 xalla turniri ikinci pillədə başa vurub. Hesabında 6 xal olan hindistanlı zəka sahibi Vişvanatan Anand turnirin qalibi olub. Rusiyalı şahmatçı Sergey Karyakin (5 xal) yarışı üçüncü yerdə tamamlayıb.

* * *

Almaniyanın paytaxtı Berlində şahmat üzrə iddiaçılar turniri keçirilib. Yarışda ölkəmizi azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov təmsil edib. Sonuncu turda Rusiya təmsilçisi Vladimir Kramniklə qarşılaşan Ş.Məmmədyarov 54-cü gedişində rəqibi ilə heç-heçəyə razılaşıb. Bu görüşdən sonra hesabında 3 qələbə, 10 heç-heçə və 1 məğlubiyyət olan Azərbaycan şahmatçısı aktivindəki xalların sayını 8-ə çatdırıb. Bu nəticə ilə şahmatçımız turniri ikinci pillədə başa vurub.

## Sambo

Rusiyanın paytaxtı Moskvada Anatoli Xarlampiyevin xatirəsinə həsr olunmuş sambo üzrə dünya kuboku keçirilib. Yarışda 26 ölkəni təmsil edən 200-dən çox samboçu mübarizə aparıb.

Turnirdə iştirak edən Azərbaycan milli komandası 2 qızıl medal qazanıb. "Neftçi idman klubu" İctimai Birliyinin təmsilçiləri Mehman Xəlilov (57 kq) və Emil Həsənov (68 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Ümumi komanda hesabında isə Azərbaycan yığması 2-ci yeri tutub.

## Kikboksinq

Azərbaycanın və "Qəbələ" idman klubunun kikboksçusu Alim Nəbiyev növbəti döyüşünü keçirib. İdmançımız "Glory" seriyasında təşkil olunan yarışda qüvvəsini sınayıb.

O, Hollandiyanın Rotterdam şəhərində təşkil olunan "Glory51"turniri çərçivəsində kamerunlu Sedrik Doumbe ilə üz-üzə gəlib. Yarımorta çəki dərəcəsində təşkil olunan 3 raundluq döyüşün qalibi hakimlərin rəyi ilə müəyyənləşib. A.Nəbiyev yekunda 2:1 hesabı ilə qalib gəlib.

Bu, kikboksçumuzun "Glory" seriyasında keçirdiyi 3-cü döyüşdə 3-cü qələbəsidir.

* * *

Azərbaycan Kikboksinq Federasiyasının üzvü, dünya çempionu, nüfuzlu yarışların qalibi Xəyal Əhmədov Almaniyada keçirilən beynəlxalq turnirdə qələbə qazanıb.

"Tank" ləqəbli idmançımızın rəqibi almaniyalı Bernd Sterrenberq olub. Rəqibinə heç bir şans verməyən Xəyal Əhmədov yarışın qalibi olub.

## Velosiped

Türkiyənin Side bölgəsində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı Side Qran-Prisi keçirilib. Birgünlük yarış "Synergy Baku" kontinental komandamız üçün uğurlu alınıb.

Yarışda Elçin Əsədov, Samir Cəbrayılov, Aleksandr Polivoda, Musa Mikayılzadə, Kərim Şirəliyev, Kənan Qəhrəmanlı və Telman Vəliyevdən ibarət heyətlə mübarizə aparan komandada ən yüksək nəticəyə Samir Cəbrayılov imza atıb. Əla komanda işinin nəticəsi olaraq finiş xəttinə 4 nəfərlik kiçik qrupun tərkibində gələn S.Cəbrayılov 184,9 kilometr məsafəni 4 saat 16 dəqiqə 23 saniyəyə başa vurub və fotofinişə əsasən ikinci olub. Bu nəticə, həmçinin idmançımıza 30 reytinq xalı da qazandırıb.

"Synergy Baku"nun digər üzvü Aleksandr Polivoda isə qalibdən 5 saniyə geri qalaraq 5-ci yeri tutub və bununla da klubumuzun aktivinə daha 15 xal əlavə edib. Komanda hesabına gəlincə, "Synergy Baku" ən yaxşı göstəriciyə imza ataraq xüsusi mükafatla təltif edilib.

## Triatlon

Azərbaycan triatlonçusu Rostislav Pevtsov İspaniyanın Las-Palmas şəhərində keçirilən Avropa kuboku yarışında ikinci yeri tutub. İdmançımız bu qələbə ilə həm də aktivinə reytinq xalları yazdırıb.

R.Pevtsov yarışın su mərhələsini 9 dəqiqə 56 saniyəyə başa vurub. O, 20 kilometr məsafəyə veloyürüşü 30 dəqiqə saat 2 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 5 kilometr məsafəyə qaçış yarışlarında isə R.Pevtsov 14 dəqiqə 32 saniyəlik nəticə göstərib. Ümumi hesablamada Rostislav Pevtsov 56 dəqiqə 12 saniyə vaxt göstəricisi ilə ikinci yerə layiq görülüb.

Turnirdə 73 idmançı mübarizə aparıb. Yarışın qalibi britaniyalı Barklay İzzard olub.

Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 1 saat 5 dəqiqə 54 saniyəlik nəticə ilə 12-ci olub.

## Futbol

Futbol üzrə Azərbaycan və Belarus milli komandaları arasında yoldaşlıq oyunu keçirilib. Oyunun 42-ci dəqiqəsində millimizin futbolçusu Maksim Medvedev avtoqolla yadda qalıb. Qarşılıqlı hücumlar şəraitində keçən oyunda qapılara top vurulmayıb. Beləliklə, görüş Belarus millisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

* * *

Türkiyənin Antalya şəhərində futbol üzrə Azərbaycan və Makedoniya milli komandaları arasında yoldaşlıq görüşü keçirilib.

Antalyadakı "Mardan" stadionunda keçirilən oyunun 6-cı dəqiqəsində Namiq Ələskərova qarşı kobud oyuna görə, Makedoniya millisinin qapısına təyin olunmuş penalti zərbəsini Riçard Almeyda dəqiq yerinə yetirərək millimizi hesabda önə çıxarıb.

Matçın 22-ci dəqiqəsində isə baş hakim Halis Özkahya bu dəfə millimizin qapısına penalti təyin edib. Makedoniyalı futbolçu Aleksandar Traykovski hesabı bərabərləşdirib.

Qarşılıqlı hücumlar şəraitində keçən görüşdə başqa qol vurulmayıb. Beləliklə, görüş 1:1 hesabı ilə yekunlaşıb.

## Atıcılıq

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin güllə atıcılığı idman növü üzrə milli komandası Birləşmiş Ərəb Əmirliklərinin Əl-Əyn şəhərində dünya kuboku yarışlarında iştirak edib.

İdmançılarımız çıxışlarını uğurla başa vurublar. Belə ki, Aybəniz Babayeva, Elşad Məmmədov, Yelena Taranova və Kamran Zeynalov mayın 1-12-də Koreya Respublikasında keçiriləcək dünya çempionatına lisenziya qazanıblar.

## Yelkənli İdman

Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) komandası beynəlxalq yarışda 600-ə yaxın idmançının iştirak etdiyi yarışda Azərbaycanı layiqincə təmsil edib. "Optimist" sinfi üzrə yığma komandası Türkiyənin Bodrum şəhərində təşkil olunan 6-cı Bodrum Beynəlxalq Optimist Yarışında (BIOR) iştirak ediblər.

Federasiyanın idman üzrə koordinatoru Burcu Algon Giorgianinin rəhbərlik etdiyi heyətdə 3 oğlan və 2 qız qüvvəsini sınayıb. Yelkənçilərimiz yarışda 21 ölkəni təmsil edən 96 ayrı yelkən klublarının idmançıları ilə mübarizə apararaq yarışları uğurla başa vurublar.

## Avtoidman

Azərbaycanın avtoidmanda yeganə təmsilçisi Gülhüseyn Abdullayev Türkiyənin Tuzla şəhərində təşkil edilən turnirin qalibi olub.

Keçən il dünyasını dəyişən Berat Türkerin xatirəsinə həsr olunan turnirdə bu ölkənin tanınmış pilotları iştirak ediblər. DD2 kateqoriyasında (mexaniki ötürmələr qutulu kartlar) yarışda iki yarımfinal mərhələsi keçirilib. Sıralanma turunda poula cəmi 0.002 saniyə uduzan həmyerlimiz hər iki yarımfinal yarışında qələbə qazanmaqla finala yüksəlib. Finalda isə həmyerlimiz rəqiblərinə heç bir şans verməyib. Beləliklə, G.Abdullayev turniri 3 qələbə ilə başa vurub.

*Unutsaq, unudularıq*

# Şuşa güləşinin əfsanəsi

***Qədim Şuşa şəhərində güləş növünə hər zaman böyük maraq olub. Azərbaycanın böyük yazıçısı Y.V.Çəmənzəminli "Qan içində" romanında XVIII əsrin ikinci yarısında Qarabağda baş verən ictimai-siyasi vəziyyəti təsvir edərkən bu idman növü ilə bağlı bir sıra məqamlara toxunub. Kitabın müəyyən səhifələrində o dövrdə Şuşadakı zorxanada pəhləvanların məşqlərindən, Şuşa cavanlarının məşğul olduğu idman oyunlarından da bəhs olunub.***

***Tarixi mənbələrdə Şuşa güləşinin inkişafı da diqqətdən kənarda qalmayıb. Burada bir sıra mütəxəssislər idmanın inkişafı üçün mühüm işlər görüblər. 1950-60-cı illərdə güləşin gənclər arasında geniş yayılmasında rolu olan mütəxəssislərdən biri də İsmayıl İsmayılov olub. O, dəfələrlə respublika yarışlarının mükafatçısı, rayon və keçmiş vilayət yarışlarının qalibi adını qazanıb, onlarla gəncin güləşçi kimi yetişməsində əlindən gələni əsirgəməyib.***

İsmayıl Ağalar oğlu İsmayılov 1929-cu il mart ayının 20-də Şuşada anadan olub. 1936-1946-cı illərdə Şuşa şəhər 1 nömrəli orta məktəbdə təhsil alıb. 1950-ci ildə ordu sıralarından tərxis olunandan sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olub.

İsmayıl İsmayılov elə birinci kursdan etibarən universitetin bədən tərbiyəsi müəllimi, məşhur güləşçi Rza Baxşəliyevin diqqətini cəlb edib. Bir qədər sonra İsmayıl təcrübəli məşqçi, əməkdar idman ustası Rza Baxşəliyevin rəhbərliyi ilə "Burevestnik" idman cəmiyyətinin güləş bölməsində idmanla məşğul olmağa başlayıb. Rza Baxşəliyev İsmayılın gələcəkdə yaxşı bir güləşçi olacağını hiss edib. İsmayıl isə öz növbəsində özünün inadlı işi ilə qayğıkeş müəlliminin tələblərinə cavab verməyə çalışıb. 1952-ci ildə İsmayıl İsmayılov klassik güləş üzrə Bakı birinciliyində iştirak edərək, yarım ağır çəkidə mükafatçılar sırasında yer alıb.

O, elə həmin ildə ali məktəb tələbələrinin Respublika birinciliyində iştirak edərək, öz çəkisində çempion adını qazanıb. İsmayıl İsmayılov "Burevestnik" tələbə idman cəmiyyətinin tərkibində Tiflis (indiki Tbilisi) şəhərində respublikamızı təmsil etmək imkanı əldə edib. Amma bu yarışda bəxti gətirməyib. O, ardıcıl üç rəqibinə qalib gəlsə də, sağ qolu çiyin nahiyəsindən bərk zədələndiyi üçün sonrakı görüşləri davam etdirə bilməyib. İsmayıl İsmayılov oxuduğu 5 il müddətində ardıcıl olaraq universitetin idman şərəfini layiqincə qoruyub. O, bir sıra mötəbər yarışlarda iştirak edib və mükafatlara sahib olub. İsmayıl müəllim klassik və sərbəst güləş üzrə 1-ci dərəcəli idmançı normasını ödəyib. O, oxuduğu illərdə respublikanın güclü güləşçiləri sırasında yer alıb. İsmayıl müəllim 1956-cı ildə universiteti bitirdikdən sonra təyinatını doğma vətəni Şuşaya alıb. Vaxtilə oxuduğu Şuşa şəhər 1 nömrəli orta məktəbində tarix müəllimi işləməklə bərabər, şəhərin bir neçə tədris müəssisəsində güləş bölmələri yaradıb. O, dəfələrlə Respublika yarışlarının mükafatçısı olub. Uzun müddət fasiləsiz olaraq keçmiş DQMV birinciliyinin qalibi adını almışdır. İsmayıl müəllim çox çətin bir şəraitdə məşqçi-müəllim kimi Şuşada yüzlərlə gəncin güləşçi tək yetişməsində əlindən gələni əsirgəməyib. O, məşqçilik fəaliyyəti dövründə bir çox istedadlı güləşçilər hazırlayıb.



*İsmayıl İsmayılov*

Onlardan Rəhman Teymurov, Famil Quliyev, Şahlar Ələsgərov, Zakir Babayev, Mənsur Məmmədov, Elxan Əsədov, Tofiq Zeynalov, Herman Bəhramov, Rizvan Hacıyev, Tariyel Kazımov, Böyükkişi Səfixanov, Süleyman Novruzov, Qəmbər Rəhimov, Qubad Xudaverdiyev, Oktay Babayev, Qorxmaz Əsədov, Famil Şirinov, Tofiq Həsənov , Bəhmən Rəsulov, Yusif Xudiyev, Kamil və Məmməd Quliyev qardaşları və digərlərini misal göstərmək olar. Demək olar ki, Şuşada güləş idman növü əhalinin, xüsusən gənclərin sevimli məşğuliyyəti olub. Güləşlə və digər idman növləri ilə maraqlanan və məşğul olanların hamısı İsmayıl müəllimi yaxşı tanıyırdılar. İsmayıl İsmayılov bir məşqçi-müəllim kimi özünün işgüzarlığı, bacarığı, tələbkeşliyi və səyləri nəticəsində nəzərə çarpacaq dərəcədə bədən tərbiyəsi və idman sahəsində böyük işlər görüb. O, harda, hansı vəzifədə işləməsinə baxmayaraq öz işinin öhdəsindən layiqincə gəlib, gördüyü işləri günün tələbləri səviyyəsinə çatdırıb. İsmayıl müəllim öz bacarıq və qabiliyyətinə görə Şuşa şəhər rəhbərliyinin göstərişi ilə müxtəlif vəzifələrə irəli çəkilib. İsmayıl müəllim 1954-cü ildən 1984-cü ilə qədər fasiləsiz əmək fəaliyyəti göstərib. O, Şuşa şəhər 1 saylı orta məktəbində və Şuşa pedaqoji məktəbində tarix müəllimi, Şuşa şəhər rabitə-poçt şöbəsinin rəisi, "Bilik" cəmiyyətinin sədri və Şuşa şəhər axşam fəhlə-gənclər orta məktəbinin direktoru vəzifəsində çalışıb. İsmayıl müəllim bu keyfiyyətli işlərinə görə bütün şuşalıların hörmətini qazanıb.

Məşhur güləşçi, tanınmış pedaqoq onu tanıyanlar tərəfindən heç vaxt unudulmayacaq. Bildirmək istəyirəm ki, İsmayıl İsmayılov 1984-cü ilin iyun ayının 18-də dünyasını dəyişib. Doğma şəhərində yerləşən "Mirzə Həsən" qəbiristanlığında torpağa tapşırılıb.



*Şəkildə soldan ikinci İsmayıl İsmayılov, dördüncü isə məşhur musiqi tədqiqatçısı Firidun Şuşinskidir.*

Təəssüf ki, İsmayıl müəllimin rayonumuzun idman həyatındakı fəaliyyəti sağlığında öz layiqli yerini almadı. Yeri gəlmişkən, İsmayıl müəllim asudə vaxtlarında şeir də yazırdı. Öz daxili hisslərini həmin şeirlərdə əks etdirirdi. Mən onun ruhunu yad etmək üçün bu məqaləmdə ölümünə bir neçə gün qalmış yazdığı "Ürək" şeirini də oxuculara təqdim etmək istəyirəm (Bu şeir Şuşada onun məzarı üzərinə həkk olunub).

Qaydasında döyün hələ,  
Qəm künlünə batma, ürək  
Neçə arzu, diləyim var,  
Gəl başımı qatma, ürək

Vaxtsız əcəl gəlsə əgər,  
Onda ürək dərd-qəm çəkər  
Qanadını üstümə gər,  
Saxla məni, atma ürək.

İsmayıl həmişə səslər  
Çək başımdan duman, çəni  
Mən yatanda gözlə məni  
Amma özün yatma, ürək.

## Yaddaşlarda iz qoyan xatirələr

Qeyd etdiyimiz kimi, İsmayıl müəllim ağır çəkili güləşçi olub. O, fəndləri elə sürətlə işlədirdi ki, rəqibləri müdafiə olunmağa imkan tapmırdılar. O, bu iradi keyfiyyətlərə görə təbiidir ki, əksər vaxtlarda döşəyi qələbə ilə tərk edirdi. İsmayıl müəllim tez-tez gözlənilməz çətinliklərlə qarşılaşırdı. Tanınmış mütəxəssis sonradan özü barədə bir sıra maraqlı hadisələri dostları ilə bölüşüb, həmin xatirələr bugünə qədər yaddaşlarda iz qoyub. Həmin xatirələri İsmayıl müəllimin dilindən oxucularımıza təqdim edirik.

## Sözünü tutmayan güləşçiyə verilən qızılgül

- Bir dəfə Martuni (Xocavənd) rayonunda sərbəst güləş üzrə vilayət birinciliyi keçirilirdi. Həmin yarışa Şuşanın yığma komandası mənim rəhbərliyim altında yüksək səviyyədə hazırlaşmışdı. Belə ki, on çəki dərəcəsində beş nəfər birinci yerə çıxmışdı. Axırıncı çəki dərəcəsində mən Martuni idmançısı ilə görüşməli idim. Mehmanxanada sabahkı görüşə görə istirahət edirdim. Birdən qapı döyüldü. Bir nəfər erməni oğlan məndən xahiş etdi ki, mən ona uduzum. Buyaxınlarda onun toyu olacaqdı. Nişanlısı da həmin görüşə baxmağa gəlməlidir. Mən humanistlik göstərib razılıq verdim.

Ertəsi gün görüş başlandı. O vaxt görüş 3 hissədən ibarət idi. 9 dəqiqəlik görüşdə hər 3 dəqiqədən bir, 1 dəqiqəlik fasilə verilirdi. Mən birinci 3 dəqiqəni döyüşsüz keçirdim. İkinci dəqiqədə isə mən özümü parter vəziyyətinə saldım. İmkan verdim ki, o, sinəmə azacıq güc verib kürəklərimi yerə vursun. Parter vəziyyətində olarkən nə görsəm yaxşıdır? Özünüz təsəvvür edin, idman salonu ağzınadək ermənilərlə dolu idi. Körpü vəziyyətində olarkən aşağıdan yuxarı baxanda hamısının gözlərində düşmənçilik, xainlik, nifrət hissi oxunurdu. Mən bu vəziyyəti gördükdə az qala ağlım başımdan çıxacaqdı. Bir anlığa cəld körpü vəziyyətindən çıxıb erməninin başım üzərindən altına atdım və kürəklərini yerə vurub, üstündə oturdum. Salondakılar sanki yasa batdılar. Yalnız şuşalıların səs-küyü qulaq batırırdı. Onlar qələbə münasibəti ilə mənim kimi ağır çəkili pəhləvanı çiyinləri üzərində salonda gəzdirdikdən sonra soyunub-geyinmə otağına apardılar. Məğlub olan rəqib öz nişanlısı ilə yanıma gəldi. Mənə dedi ki, axı sən mənə söz vermişdin ki, güzəştə gedəcəksən. Cavabında dedim ki, əgər yarış Şuşada keçirilsə idi, onda mən sənə uduzardım. O, kor-peşman geri qayıdanda nişanlısı əlində olan qızıl gülləri mənə uzatdı...

## Bir-birinə layiq rəqib, yaxud qalibi müəyyənləşməyən görüş

- Bir dəfə Şuşada azarkeşlər belə qərara gəldilər ki, İsmayıl müəllimlə Azərbaycanın məşhur pəhləvanı şuşalı Qaçay pəhləvanın güləşini təşkil etsinlər. Razılıq əldə etdikən sonra realnı məktəbin idman salonunda görüşün keçirilməsi üçün lazımi tədbirlər görüldü. Salon ağzına qədər şuşalılarla dolu idi. Dəfələrlə institutlararası birinciliklərdə çempion, respublika yarışlarının bir neçə dəfə mükafatçısı olmuş İsmayıl İsmayılov və Azərbaycanın tanınmış məşhur pəhləvanı Qaçay Hüseynovla görüş keçirildi. Hər ikisi ağır çəkidə olan güləşçi və pəhləvan idi. Həmin il İsmayıl müəllimin 27, Qaçay müəllimin isə 26 yaşı var idi. Hamı diqqətlə hər ikisinin necə güləşəcəyini gözləyirdi. Gərgin vəziyyət yaranmışdı. Vaxt isə gedirdi.

Görüş başlandı. İsmayıl müəllim ehtiyatla Qaçay pəhləvana girişirdi. Ayağından tutmağa ehtiyat edirdi, ona görə ki, onun ayaqları çox güclü idi. Buna görə də tez fikrini dəyişdi. Qaçay pəhləvan isə onun qollarını tutmaq istəyirdi ki, sıxıb döşəyə çökdürsün. Hər ikisi xalça üzərində gəzişirdilər və fürsət axtarırdılar. Birdən İsmayıl müəllim Qaçay pəhləvanın qolundan tutub, fənd işlədərək onu döşəyə çırpmaq istədi. Qaçay pəhləvan ehtiyatla güc verib, onun əlindən çıxa bildi. Bir qədər güləşdikdən sonra fasilə elan olundu. Salonda olan alqış səsləri, səs-küy qulaq batırırdı. Hamı bu gərgin və maraqlı görüşdə kimin necə güləşəcəyini, hansı fəndləri işlədəcəyini, necə müdafiə olunacağını və hücum edəcəyini səbirsizliklə gözləyirdi.



*İsmayıl İsmayılov məşhur "Cıdır düzü"ndə seyr edərkən (Şuşa şəhəri, 1984-cü il, may).*

İkinci hissədə yenə də, güləşənlər döşək üzərində gəzişir, fəndlər işlətmək üçün hərəkət edirdilər. İsmayıl müəllim yaraşıqlı, dolu bədənli idi - əsl pəhləvan kimi. Baxışı, saçlarının tez-tez dağılması və cəld əlləri ilə o yana bu yana burması ona xüsusi gözəllik verirdi. Qaçay pəhləvan da fenomen bədən quruluşuna, əzələlərin möhkəmliyinə, belinin nazikliyinə və xalça üzərindəki duruşuna görə rəqibindən geri qalmırdı. Birdən İsmayıl müəllim xalça üzərində cəld manevr edərək rəqibinə fənd işlətdi. Qolları ilə onun bədənindən tutub, xalçaya yıxmaq və onu başı üzərindən atıb, kürəyini döşəyə vurmaq istədi. Qaçay pəhləvan müdafiədə zəif idi və demək olar ki, səriştəsi yox idi. Görəndə ki, İsmayıl müəllim onun arxasını döşəyə vuracaq, pəhləvanlığa əl atmağı üstün bildi. İsmayıl müəllimin sağ ayağını topuğundan tutdu, gücü ilə sıxıb burdu, rəqibin əlləri boşaldı və o, heç nə edə bilmədi. Qaçay pəhləvan onu önünə tərəf dartaraq, xalçadan bir neçə metr kənara tulladı. Bütün zal ayağa qalxdı. İsmayıl müəllim güləşdə öz gücünü texnikasını Qaçay isə pəhləvanlığını göstərdi. Bu görüşdə qalib olmadı. Beləliklə, İsmayıl müəllim və Qaçay pəhləvan mehribancasına görüşüb bir-birini təbrik edərək, azarkeşlərin müşayiəti ilə zalı tərk etdilər. Bütün gün şuşalılar güləşçi İsmayıl müəllimdən və pəhləvan Qaçayın mübahisəli görüşündən danışırdılar. Bu gərgin və maraqlı görüş 1956-cı ildə Şuşanın güləş və pəhləvanlıq tarixində silinməz izlər buraxdı.

***Əbülqasım Novruzov***

**P.S.** *Deyilənə görə, İsmayıl müəllimin dayısı Abış kişi (o, el arasında qəssab Abış kimi məşhur idi, eyni zamanda o, sevimli müğənnimiz Flora Kərimovanın babası idi) güləş məşğələlərində və rəsmi yarışlarda müntəzəm olaraq azarkeş kimi iştirak edirmiş. Bu nurani qoca güləşin sirlərini yaxşı bildiyindən idmançılara dəyərli məsləhətlər verir və onlara qayğı göstərirdi.*

Yetirmələri öz müəllimləri barəsində bunları deyirdilər:

**Kamil Quliyev (I dərəcəli güləşçi)**

- İsmayıl müəllim böyük şəxsiyyət idi, onun idmançıya məxsus təmiz ürəyi var idi.

**Böyükkişi Səfixanov (I dərəcəli güləşçi)**

- İsmayıl müəllimin özünəməxsus məşqçilik xüsusiyyətləri var idi. Ona görədə onun yetirmələri müxtəlif yarışlarda həmişə müvəffəqiyyətlə çıxış edirdilər.

**Tofiq Zeynalov (I dərəcəli güləşçi)**

- Cəsarətlə deyə bilərəm ki, əgər İsmayıl müəllim Respublika güləş komandasının baş məşqçisi olsaydı, Azərbaycan gənclərinin idman aləmində özünə məxsus dəsti-xətti olardı...

**Zakir Babayev (Yunan-Roma güləşi üzrə ilk şuşalı SSRİ idman ustası)**

- Fəxr edirəm ki, ilk məşqçim İsmayıl müəllim olub. Təssüf ki, o, az yaşadı. Mən həmişə doğma Şuşaya gedəndə də onun qəbrini ziyarət edib, deyirdim: "Allah sənə rəhmət eləsin, qəbrin nurla olsun".

# Vüqar Həşimov Şahmat Akademiyasının yeni filialı fəaliyyətə başlayıb

Vüqar Həşimov Şahmat Akademiyasının yeni filialı açılıb.

Tanınmış şahmatçı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun adını daşıyan akademiyanın yeni filialı Landmark İş Mərkəzində fəaliyyətə başlayıb.

Mərhum şahmatçının qardaşı Sərxan Həşimov bu barədə deyib: "Şahmat tarixən Azərbaycanda məşhur idman növlərindən olub. Təsadüfi deyil ki, xalqımız müxtəlif dövrlərdə dünyaya dahi şahmatçılar bəxş edib. Şahmat hazırda ölkəmizdə sevilən idman növlərindəndir və uğurla inkişaf edir. Vüqar Həşimov Şahmat Akademiyası da Azərbaycanda idmanın bu növünün kütləviliyinin artırılmasına və inkişafına dəstək vermək üçün yeni filiallar açır, müxtəlif tədbirlər, yarışlar təşkil edir".

Xatırladaq ki, Vüqar Həşimov Şahmat Akademiyası 2016-cı ildə yaradılıb. Akademiyada yaşından asılı olmayaraq, hər kəsə şahmat dərsləri keçirilir və müxtəlif yarışlar təşkil olunur.

# Ədalət təmsilçimiz "Novara" - "Qalatasaray" oyununu idarə edəcək

Azərbaycanlı hakim Eldar Əliyev Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən yeni təyinat alıb. Eldar Əliyev qadın voleybol komandaları arasında Çempionlar Liqasının pley-off mərhələsi çərçivəsində keçiriləcək "Novara" (İtaliya) - "Qalatasaray" (Türkiyə) oyununu idarə edəcək. Görüşün baş hakimi isə rusiyalı Yevgeni Maşkanov olacaq. "Novara" - "Qalatasaray" oyunu aprelin 5-də İtaliyada keçiriləcək.

# "Polad kuboku" başa çatıb

Atçılığın konkur növü üzrə keçirilən "Polad kuboku"na yekun vurulub.

Binə Atçılıq Mərkəzinin açıq manejində təşkil olunan turnirin sonuncu günündə çaparlar "S*" kateqoriyası üzrə mübarizə apardılar. Turnirdə 130-140 santimetr hündürlüyündə maneələr üzrə yarışda "Polad" kubokunun qalibi "Sərhədçi" klubunun idmançısı Seyid Musayev olub. O, yarışda "Cissy" ləqəbli atla iştirak edib. İkinci yerə "Cera 59" ləqəbli atla "Elite Horse and Polo Club"un idmançısı Elmar Abdullayev yüksəlib. Bürünc medala isə "AFP S Chantal 261" ləqəbli atla "Omar" klubunun idmançısı Ələkbər Məmmədov layiq görülüb.

Qeyd edək ki, turnirin ümumi mükafat fondu 5 min manat təşkil edib.



# FUTBOL

# Yığmamız Antalyadan heç-heçə ilə qayıdıb

***Azərbaycan milli komandası növbəti yoldaşlıq oyununu keçirib. Qurban Qurbanovun yetirmələrinin bu dəfəki rəqibi Makedoniya yığması olub. Maraqlı mübarizə şəraitində keçən matçda qalib müəyyənləşməyib.***

### Yoldaşlıq görüşü

**Azərbaycan - Makedoniya - 1:1**

**Qollar:** Almeyda, 6 (pen.) - Traykovski, 22 (pen.).

**Azərbaycan:** 1. Kamran Ağayev (k), 2. Qara Qarayev, 5. Maksim Medvedev, 7. Araz Abdullayev (8. Emin Mahmudov, 90), 9. Namik Ələsgərov (17. Rəhman Hacıyev, 69), 13. Dmitri Nazarov (25. Cavid İmamverdiyev, 59), 15. Ruslan Abışov, 19. Amil Yunanov (10. Ruslan Qurbanov, 59), 20. Riçard Almeyda (16. Rəşad Eyyubov, 78), 21. Tural Axundov (6. Rahil Məmmədov, 75), 24. Ürfan Abbasov.

**Makedoniya:** 1. Stole Dimitrievski, 13. Stefan Ristovski, 4. Kire Ristevski, 6. Visar Muslui, 14. Darko Velkovski (3. Qoko Zaykov, 80), 16. Boban Nikolov (5. Ariyan Ademi, 69), 11. Enis Bardhi (8. Ezgyan Alioski, 59), 19. Maryan Radeski, 7. İvan Triçkovski (23. İliya Nestorovski, 59), 9. Aleksandr Traykovski, 10. Qoran Pandev (k) (20. Stefan Spirovski, 46).

**Hakimlər:** Halis Özkahya, Kemal Yıldırım, Kerem Ersoy, Ali Palabıyık (hamısı Türkiyə).

***27 mart. Antalya. "Mardan" stadionu.***

### Məğlub edə bilmədiyimiz rəqib

Bir neçə gün əvvəl Bakı Olimpiya Stadionunda Belarus millisinə minimum hesabla uduzan komandamız Makedoniya yığmasını Antalyada məğlub etməyə çalışıb. Matça yaxşı başlayan təmsilçimiz oyunun 6-cı dəqiqəsində hesabı açmağa müvəffəq olub. Baş hakimin təyin etdiyi penaltini Riçard Almeyda dəqiq yerinə yetirib. Qoldan 16 dəqiqə sonra rəqib eyni vəziyyətdən hesabı bərabərləşdirib - 1:1.

Maraqlıdır ki, indiyə qədər bu komanda ilə keçirilən 6 görüşün heç birində yığmamız qalib gələ bilməmişdi. Sözügedən seriya 7 oyuna çatıb. İlk dəfə 2000-ci ildə qarşılaşdığımız balkanlar 5 qələbə qazanıb. Bir görüşdə isə heç-heçə qeydə alınıb. Top fərqi də rəqibin aşkar üstünlüyündən xəbər verir - 13:4. Bu matçlardan 4-ü yoxlama xarakterli olubsa, 2 dəfə dünya çempionatının seçmə mərhələsində qarşılaşmışıq. Məhz həmin iki oyundan biri (5 sentyabr 2001. Bakı - 1:1) heç-heçə ilə nəticələnib.

### Futbolçular hələ yeni sistemə uyğunlaşmayıblar

Qurban Qurbanovun rəhbərliyi altında 3-cü matçına çıxan təmsilçimiz ilk dəfə ümid verən futbol göstərib. Belaruslarla matçda sönük çıxış edən futbolçularımız bu dəfə nisbətən güclü rəqiblə daha yüksək tempdə oynayıb. Təbii ki, futbolçuların həm bir-birilərinə, həm də yeni sistemə uyğunlaşmaqda çətinlik çəkdikləri aşkar görünürdü. Hiss olunur ki, baş məşqçi "Qarabağ"da olduğu kimi, yığmada da oyunçulardan topla çox oynamağı tələb edir.

Mövqelər üzrə nəzər yetirdikdə, müdafiə xəttinə xüsusi yer ayırmaq lazımdır. Arxa xətdəki futbolçular heç də etibarlı görünmürdülər. Amma ikinci hissədə öndə tətbiq edilən pressinq rəqibin irəli çıxmasına mane olurdu. Bu da müdafiəçilərin işini xeyli asanlaşdırdı.

Ümumilikdə, ilk hissədəki yüksək tempi fasilədən sonra görə bilmədik. Qapılar qarşısında təhlükəli vəziyyətlər də yaranmırdı. Bunda ikinci hissədə tez-tez edilən əvəzləmələrin rolu böyük olub.

Futbolçuları fərdi şəkildə dəyərləndirdiyimiz zaman qapıçı və yarımmüdafiəçilərimizin matçı daha yaxşı keçirdiklərini söyləmək mümkündür.



### Almeyda: qol vuran 3-cü braziliyalı futbolçu

Bu oyunda Azərbaycan millisi qol həsrətinə son qoyub. Komandamız həm 2018-ci ildə, həm də Qurban Qurbanovun rəhbərliyi altında qol hesabını açıb. Bu il Moldova (0:0) və Belarus (0:1) yığmaları ilə yoxlama oyunlarında rəqib qapısına yol tapa bilməyən millimiz qarşılaşmanın 6-cı dəqiqəsində fərqlənib. Penalti zərbəsini dəqiq yerinə yetirən Riçard Almeyda qol həsrətinə son qoyub.

Qeyd edək ki, millimiz son qolunu 2017-ci ildə vurub. Oktyabrın 8-də Almaniya ilə görüşün (1:5) 34-cü dəqiqəsində qol sevinci yaşayan Ramil Şeydayevin uğurundan sonra millimiz 242 dəqiqə növbəti uğuru gözləyib.

Yeri gəlmişkən, Riçard Almeyda yığmada ilk qolunu vurub. Braziliyalı yarımmüdafiəçi millidəki qol hesabını 8-ci matçında açıb. Belə ki, milliləşən legioner bunadək keçirdiyi 7 görüşdə qol vurmamışdı. Almeyda yığmamızın tarixində qol sevinci yaşayan 57-ci futbolçudur.

Almeyda millimizdə qol vuran 3-cü braziliyalıdır. O, "sambaçılar"ın 6-cı qolunun müəllifi olub. Fabio Luis Ramim 4 qolla ən məhsuldar braziliyalı futbolçudursa, ilk belə uğurun müəllifi Andre Ladaqadır.



### Yığmamızın oyununda ilk dəfə VAR sistemi tətbiq olunub

Makedoniya millisi ilə yoldaşlıq oyununda ilk qeydə alınıb. Yığmamızın keçirdiyi matçlarda ilk dəfə videotəkrardan - VAR sistemindən istifadə edilib.

Maraqlıdır ki, qarşılaşmanın 20-ci dəqiqəsində millimizin müdafiəçisi Ruslan Abışovun rəqib hücumçu Qoran Pandevə kobudluğu zamanı hakim hadisənin cərimə meydançasından kənarda olduğuna qərar verib. Amma makedoniyalı oyunçuların tələbi ilə VAR-a müraciət olunub və FİFA referisi Cüneyt Çakırın rəhbərlik etdiyi video-hakimlər epizodun penalti olduğunu bildiriblər. Yalnız bundan sonra baş hakim Halis Özkahya qərarını dəyişib və qapımıza penalti zərbəsi təyin edib.

### *Oyundan sonra*

***Qurban Qurbanov (Azərbaycan milli komandasının baş məşqçisi):*** "Belə bir oyunun keçirilməsini çox istəyirdim. Futbolçuların bu cür qarşılaşmalara uyğunlaşması vacibdir. Bu gün meydanda çox istəkli idilər. Hətta məğlub olsaydıq belə, oyundan razı qalacaqdım. Əvvəlki oyunlar zamanı futbolçularda psixoloji baxımdan müəyyən problemlər hiss olunurdu. Ancaq bu qarşılaşmada daha yaxşı təsir bağışladılar. Bakıda Belarusla keçirdiyimiz oyunda təkbətək epizodlar zamanı rəqibdən geri qalmışdıq. Oyunsonrası statistika da bunu göstərmişdi. Ancaq bu gün belə olmadı. Futbolçularımı təbrik edirəm. Ciddi bir rəqiblə qarşılaşdıq. Tam istədiyim futbolu görməsəm də, istədiyim mübarizəni izlədim. Oyuna diqqət və konsantrasiya daha yaxşı idi. Təlim-məşq toplanışı ərzində futbolçularla çox söhbətlər apardıq və istədiklərimin əksəriyyətini meydanda gördüm. Hazırlıq prosesindən razı qaldığımı qeyd edə bilərəm. VAR sisteminin tətbiqini isə normal qarşıladım. Ədalətli bir qarşılaşma oldu".

***Kamran Ağayev (Azərbaycan milli komandasının qapıçısı):*** "Qələbə qazanmaq istəyirdik. Rəqibin bir neçə futbolçusu güclü klublarda çıxış etsə də, vacib olan komanda şəklində bir-birini anlamaq, başa düşməkdir. Bu oyunda hər iki qol penalti zərbəsindən vuruldu. Oyun heç-heçə başa çatsa da, üstün tərəf biz idik. Xüsusilə də, ikinci hissədə onlara real qol epizodu yaratmaq imkanı vermədik. Əvəzində biz yaxşı oynadıq, hətta hesabı artırmağa da yaxın olduq. Yoldaşlıq oyunu olsa belə, meydana ancaq qələbə qazanmaq üçün çıxmışdıq. Çünki oyunun statusundan asılı olmayaraq, ölkəmizi təmsil edirik".

***Tural Axundov (Azərbaycan milli komandasının müdafiəçisi):*** "Rəqib çox güclü idi. Buna görə də güclü tərəflərini zərərsizləşdirməyə çalışdıq. Hətta buna nail olduğumuzu da deyə bilərəm. Bir neçə epizod oldu ki, hesabda önə keçə bilərdik. Bu cür çıxış etsək, yaxşı nəticələr əldə edəcəyik".

***Ürfan Abbasov (Azərbaycan milli komandasının müdafiəçisi):*** "Rəqibi yaxşı analiz etmişdik. Güclü futbolçulara malik olduqlarını bilirdik. Baş məşqçimiz Qurban Qurbanovun verdiyi tapşırıqları yerinə yetirməyə çalışdıq. Bu oyun bizim üçün yaxşı alındı. Bir neçə qol epizodu yaratsaq da, təəssüf ki, istifadə edə bilmədik. Reallaşdırsaydıq, nəticə fərqli olacaqdı".

# U-21 final mərhələ şanslarını itirdi

21 yaşınadək futbolçulardan ibarət milli komandamız növbəti oyununa çıxıb. Millimiz Avropa çempionatının seçmə mərhələsi çərçivəsində İrlandiya yığması ilə münasibətlərinə aydınlıq gətirib. Təmsilçimiz matçın son saniyələrində qapısından top buraxaraq meydanı məğlub tərk ediblər.




**AVRO-2019-un seçmə mərhələsi (U-21)**

**5-ci qrup**

**İrlandiya - Azərbaycan - 1:0**

**Qol:** Svini, 90+9.

**Hakimlər:** Filip Qlova, Peter Kovaç, Yan Pozor, Pavol Çmura (hamısı Slovakiya).

***27 mart. Dublin. "Tallaqt" stadionu.***

Rəşad Sadıqovun yetirmələri güclü komanda ilə matçda 90 dəqiqə ərzində qapısını toxunulmaz saxlayıb. Amma oyunun əsas vaxtına əlavə olunmuş 9-cu dəqiqədə futbolçularımız qapısında qol görüblər - 0:1.

İrlandlarla görüş gənclər millimizin seçmə mərhələdə 7-ci matçı olub. Əvvəlki 6 oyunda qələbə üzü görməyən və turnir cədvəlinin sonuncu pilləsində qərarlaşan komandamız bu dəfə də xal hesabını artırmağa nail olmayıb.

Beləliklə, təmsilçimizin seçmə mərhələlərdəki qələbəsiz oyunlar seriyası 10-a çatıb. Yığmamız sonuncu dəfə 2015-ci il noyabrın 17-də qələbə qazanıb. Həmin vaxt Rusiya millisini Bakıda 3:0 hesabı ilə məğlub edən komandamız artıq 862 gündür 3 xal sevinci yaşamır.

Bu müddətdə komandamız AVRO-2017-nin son üç görüşündə Rusiya (2:2), Farer adaları (1:1) və Finlandiya (0:0) milliləri ilə heç-heçələrə imza atıb. Cari seçmə mərhələdə isə İrlandiya (1:3, 0:1) və Almaniyaya (0:7, 1:6) iki dəfə uduzan komandamız Kosovodan (0:0, 0:2) xal alsa da, İsrailə (1:3) məğlub olub.

İrlandiyadakı məğlubiyyət nəticəsində Azərbaycan millisi AVRO-2019-un final mərhələsinə vəsiqə qazanmaq şanslarını rəsmən itirib. Belə ki, qrup mərhələsinin sonuna 3 oyun qalmış cəmi 1 xalı olan Rəşad Sadıqovun yetirmələri nəinki final mərhələsinə vəsiqə üçün ümid verən 2-ci yerə, hətta 4-cü pilləyə də şansı qalmayıb. Yığmamız son matçlarda 6 xal geridə olduğu İsraillə 5-ci yer üçün mübarizə aparacaq.

Qeyd edək ki, seçmə mərhələdə qrup qalibi olan 9 komanda birbaşa final mərhələsinə yüksələcək. Ən yaxşı nəticəyə malik dörd 2-ci yer sahibi isə pley-offda son iki vəsiqə üçün mübarizə aparacaq. Yarışa San-Marino ilə birlikdə ev sahibliyi edəcək İtaliya isə seçmə oyunlarından azaddır.

| | *O* | *Q* | *H* | *M* | *T* | *X* |
|---|---|---|---|---|---|---|
| *1. Almaniya* | *7* | *5* | *1* | *1* | *23-6* | *16* |
| *2. İrlandiya* | *6* | *4* | *1* | *1* | *10-3* | *13* |
| *3. Kosovo* | *8* | *3* | *2* | *3* | *8-8* | *11* |
| *4. Norveç* | *7* | *3* | *2* | *2* | *10-9* | *11* |
| *5. İsrail* | *7* | *2* | *1* | *4* | *10-16* | *7* |
| *6. Azərbaycan* | *7* | *0* | *1* | *6* | *3-22* | *1* |

# Rauf Əliyev "Qəbələ"də

"Qəbələ" klubu heyətini yeni futbolçu ilə gücləndirib. Klubun mətbuat xidmətindən aldığımız məlumata görə, "qırmızı-qaralar" Rauf Əliyevlə ortaq məxrəcə gəliblər.




29 yaşlı hücumçu yeni komandası ilə artıq müqavilə imzalayıb. Anlaşmaya əsasən, milli komandamızın 29 yaşlı futbolçusu 2019-cu ilin yayına qədər "Qəbələ"yə məxsus olacaq.

Son klubu Albaniya təmsilçisi "Kukesi" olan Rauf Əliyev 2017-ci ilin ikinci yarısında bu ölkədə legioner həyatı yaşayıb. O, karyerası ərzində "Qarabağ" (2006-2013), "Bakı" (2013-2014), "Xəzər Lənkəran" (2014-2015), "Neftçi" (2015) və "İnter" (2015-2017) klublarının da formasını geyinib.

Qeyd edək ki, Rauf 2010-cu ildə debüt etdiyi Azərbaycan yığmasında keçirdiyi 45 oyunda 7 qol vurub.

# "Neftçi"nin futbolçusu "Milan"nın heyətində olub

"Neftçi" klubunun futbolçusu Lorenzo Mezzotero ənənəvi olaraq hər il keçirilən "Milan günləri" toplanışında iştirak edib. Klubun mətbuat xidmətindən aldığımız məlumata görə, toplanışa 33 ölkədən 2003-2004-cü və 2007-2008-ci illər təvəllüdlü 306 uşaq və yeniyetmə qatılıb.

2008-ci il təvəllüdlü Lorenzonun oyunu və potensialı klubun mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilib.

Qeyd edək ki, "Milan" ölkə xaricində oynayan istedadlı italiyalı futbolçulara hər il dəvət göndərərək, onların hazırlıq səviyyəsini yoxlayır. "Neftçi" İtaliya təmsilçisinin dəvətini müsbət dəyərləndirərək, Lorenzo Mezzoteronun toplanışda iştirak etməsi üçün lazımi şəraiti yaradıb. Martın 30-u "Neftçi"yə qoşulan Lorenzo Mezzotero aprelin 6-sı start götürəcək "İzmir Cup" turnirində bakılıların heyətində olacaq.

# *UEFA-nın reqlamentindəki yeniliklər hansıdır?*

UEFA Çempionlar Liqası (ÇL) və Avropa Liqasının (AL) 2018/19-cu illər mövsümündə reqlament dəyişikliyini təsdiqləyib. Ən çox maraq doğuran dəyişiklik əvəzetmələrlə bağlıdır.

Qitə futbol qurumunun prezidenti Aleksandr Çeferin tərəfindən ötən ay Slovakiyada təşkil olunmuş iclasdan sonra təklif olunan 4-cü əvəzləmə ilə bağlı yenilik artıq qüvvəyə minib. Belə ki, gələn mövsümdən ÇL və AL-in pley-off mərhələlərində baş məşqçilər 4 dəyişiklikdən yararlana biləcəklər. Bu qarşılaşmalarda qalib müəyyənləşməzsə, əlavə edilmiş 30 dəqiqədə 4-cü dəyişiklik imkanı yaranacaq. Bu qərar UEFA Superkuboku üçün də keçərlidir.

Həmçinin klub turnirlərinin finalında baş məşqçilər iştirak ərizəsinə 23 futbolçunun adını yaza biləcəklər. Belə olan məqamda ehtiyatda 12 oyunçu olacaq.

Bundan başqa, Çempionlar Liqası matçlarının başlama saatı da fərqli olacaq. Gələn mövsümdən qarşılaşmalar Avropa vaxtı ilə saat 21:00-da (Bakı vaxtı ilə saat 23:00) start götürəcək. Qrup mərhələsinin çərşənbə axşamı və çərşənbə günü keçiriləcək iki oyunu isə saat 18:55-də (20:55) başlayacaq. Qrup mərhələsinin son turunda bütün oyunlar eyni vaxtda başlayacaq.

Avropa Liqasında qrup mərhələsindən 1/8 finala qədərki qarşılaşmalar saat 18:55-də (20:55) və 21:00-da (23:00) start götürəcək. Matçların saatı püşkatmaya uyğun təyin olunacaq. Bu turnirdə də son turun bütün oyunlarının start fiti eyni anda veriləcək. 1/4, 1/2 və final matçları isə 21:00-da (23:00) başlayacaq.

UEFA Super Kuboku uğrunda görüş saat 21:00-da (23:00) start götürəcək. Bu, avqustun 15-də Estoniyanın paytaxtı Tallində oynanılacaq matç üçün də keçərlidir.

Digər dəyişiklik transferlərlə bağlıdır. Belə ki, ÇL və AL-də qrup mərhələsi başa çatdıqdan sonra klublar avrokuboklarda çıxış etmək üçün 3 futbolçu sifariş edə biləcəklər. Yəni qışda transfer olunacaq 3 oyunçunun yeni komandasında iştirakına heç bir məhdudiyyət qoyulmayacaq.

*Səhifəni hazırladı:*
***Rahib Səmədov***

# DÜNYA idmanı



*Formula 1 üzrə dünya çempionatının yeni mövsümünə start verilib. Martın 25-də keçirilən birinci yarışda - Avstraliya Qran-Prisində "Ferrari"nin pilotu Sebastyan Fettel qalib gəlib.*

*İlk yarışda pilotlar Melbrundakı Albert Parkda 5303 metrlik şossedə 58 dövrə vurublar.*

Sebastyan Fettel yarışı 1 saat 29 dəqiqə 33,283 saniyəlik nəticə (25 xal) ilə başa vurub. Liderdən 5,036 saniyə geri qalan Lyuis Hamilton ("Mersedes") yarışı 18 xalla ikinci pillədə yekunlaşdırıb. İlk üçlüyü liderdən 6,309 saniyə sonra finişə çatan Kimi Raykonnen ("Ferrari", 15 xal) tamamlayıb. S.Fettel karyerasında 48-ci, Melbrunda üçüncü və ardıcıl ikinci qələbəsini qazanıb.

## Formula-1 yeni mövsümə start verib



Konstruktorlar kubokunda isə "Ferrari" 40 xalla birinci, "Mersedes" 22 xalla ikinci, "Aston Martin Red Bull Racing" isə 20 xalla üçüncü pillədə qərarlaşıb.

Çempionatın növbəti, ikinci yarışı olan Bəhreyn Qran-Prisi aprelin 6-8-də "Sahir" avtodromunda keçiriləcək.

Dünya çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-pri yarışları isə aprelin 27-29-da Bakıda təşkil olunacaq.



## İki peşəkar bir arada

Lebron Ceyms məşqçisinə ildə 1 milyon yarım vəsait ödəyir.

Tanınmış NBA basketbolçusunun məşqçisi Mayk Mançiasdır. O, 2001-ci ilə peşəkar məşqçi Tim Qroverin yanında kurs keçib və növbəti il basketbol dünyasının ulduzu Maykl Cordanla işləyib. Sonra tale onu 2004-cü ildə "Klivlend"ə gətirib və Mayk burada Lebron Ceymslə tanış olub.

İndi onlar daim bir yerdədirlər. Lebron Ceyms Olimpiya Oyunlarına, müxtəlif tədbirlərə, hətta yayda istirahətə belə məşqçisi ilə birgə gedir.

İşinin peşəkarı olan Mayk Mançias sadə və təvazökar olduğu üçün ictimaiyyətdən qaçır və jurnalistlərə müsahibə vermir.

## Messi müayinə olunacaq

İspaniyanın "Barselona" klubunun ulduz futbolçusu Lionel Messi tibbi müayinədən keçəcək.

Bu barədə Kataloniya təmsilçisinin baş məşqçisi Ernesto Valverdo məlumat verib. O, argentinalı futbolçunun fiziki durumu haqda məlumatlı olmadığını söyləyib: "Messi cümə axşamı tibbi müayinədən keçəcək. Daha sonra onun vəziyyətini qiymətləndirə bilərik. O, La Liqanın son matçında "Atletik"lə qarşılaşmada yaxşı təsir bağışladı. Ümid edirik ki, onun ciddi zədəsi yoxdur."

Qeyd edək ki, Lionel Messi Argentina milli komandasının heyətinə dəvət alsa da, İtaliyanı 2:0 hesabı ilə məğlub etdikləri və İspaniyaya 1:6 uduzduqları matçda iştirak etməyib.



## Madrid turnirində kimlər iştirak edəcək?

Aprel ayının 6-dan 13-dək Madrid şəhərində keçiriləcək "Mutua Madrid Open" turnirində iştirak etmək hüququ qazanan qadın tennisçilərin adları açıqlanıb.

Beləliklə, yarışda Simona Halep (Rumıniya), Serena və Vinus Uilyams bacıları (ABŞ),Viktoriya Azarenko (Belarus), Karolin Vosnyatskiy (Danimarka), Qarbin Muqurusa (İspaniya), Petra Kvitova (Çexiya), eləcə də Karolin Qarsia (Fransa) iştirak edəcəklər.

## Saç düzümü ilə hər kəsi təəccübləndirdi



"Mançester Yunayted"in məşhur futbolçusu Maruan Fellaini yeni saç stili ilə görənləri təəccübləndirib.

Tanınmış oyunçu qıvrım saçlarını ikiyə ayıraraq yığıb.

O, yeni imici ilə "GQ Style" jurnalının son buraxılışı üçün kamera önünə keçib.

Türkiyənin "Beşiktaş" və "Qalatasaray" klublarının transfer gündəmində olan Fellaini yeni saç düzümü ilə onu sevənlərin diqqətini cəlb edib.

İngiltərə millisinin sabiq baş məşqçisi Sven-Yoran Eriksson qarşıdakı dünya çempionatında sabiq komandasının şanslarını dəyərləndirib.

## Mütəxəssis hansı proqnozu verdi?



İsveçli mütəxəssis ingilislərin dünya çempionu ola bilməməsinin səbəbini də göstərib: "İngiltərənin DÇ-2018-də çempion olmaq şansı yüksəkdir. Komanda seçmə mərhələdə özünü yaxşı tərəfdən göstərib. Heyətdə kifayət qədər gənc və istedadlı futbolçular var. Onlara sadəcə bir az bəxt və zədələrdən uzaq olmaq lazımdır. Zədə İngiltərə millisinin əsas probleminə çevrilib. Bunu həmişə demişəm, yenə təkrar edirəm, İngiltərə çempionatında qış fasiləsi olmasa, onlar heç vaxt dünya çempionu ola bilməyəcəklər".

# Meydanda həyata "əlvida" deyənlər

*İtaliya millisinin futbolçusu, "Fiorentina" klubunun kapitanı Davide Astori ötən ay 31 yaşında dünyasını dəyişib. Futbolçu "Udineze" ilə səfər matçı üçün komandası ilə Udine şəhərinə gəlsə də, mehmanxanada gözlənilmədən halı pisləşərək vəfat edib. Nəticədə onun infarktdan həyatını dəyişdiyi məlum olub.*

Tarixə nəzər salanda meydançada həyatına "əlvida" deyən futbolçuların az olmadığını görürük. "Olimpiya dünyası" qəzeti onlardan bir neçəsini təqdim edir:

**Di Cons (27 avqust 1902)** - "Mançester Siti"nin futbolçusu dizindən aldığı yaraya mikrob düşməsi nəticəsində dünyasını dəyişib.

**Tomi Blekstok (8 aprel 1907)** - "Mançester Yunayted"in "Seynt Helens" komandası ilə oyununda baş zərbəsindən keçinib.

**Bob Benson (19 fevral 1916)** - "Arsenal"ın "Redinq"lə oyunundan sonra qan damarının partlaması nəticəsində vəfat edib.

**Con Tomson (5 sentyabr 1931)** - 22 yaşlı futbolçu dünyanın məşhur oyunlarından olan Şotlandiya derbisində həyatını tapşırıb. "Seltik"in futbolçusunun "Reyncers"lə derbi matçında rəqib oyunçu Sem İnqls ilə toqquşmada kəllə sümüyü sınıb və o həmin gecə də həyatını itirib.

**Pavau (16 dekabr 1973)** - "Portu"nun futbolçusu çempionat oyunu vaxtı ürəktutmasından dünyasını dəyişib.



**Renato Kuri (30 oktyabr 1977)** - "Peruca"nın yarımmüdafiəçisi "Yuventus"la oyunun ikinci hissəsinin başlanmasından beş dəqiqə keçməmiş infarkt keçirib. Məhz bundan sonra "Peruca"nın stadionuna onun adı verilib.

**Samuel Okvaraci (12 avqust 1989)** - Nigeriya millisinin üzvü dünya çempionatının seçmə mərhələsində Anqola ilə oyundan sonra həyata əlvida deyib. Bədəni yarıldıqdan sonra onun ürək genişlənməsi və yüksək qan təzyiqindən əziyyət çəkdiyi müəyyənləşib.

**Qabor Jiboraş (1 sentyabr 1993)** - MTK klubunun qapıçısı Macarıstan millisinin məşqi zamanı komaya düşüb. Bir həftədən sonra isə vəfat edib.

**Sergey Perxun (29 avqust 2001)** - Moskva SSKA-nın qapıçısı "Anji"nin hücumçusu Budun Budunovla toqquşmada ciddi beyin zərbəsi alıb. Səkkiz gün sonra beyin qanaxmasından dünyasını dəyişib.

**Mark-Vivyen Foe (26 iyun 2003)** - Kamerun millisinin futbolçusu Fransanın Lion şəhərində keçirilən Konfederasiyalar Kubokunun yarımfinalında Kolumbiya ilə qarşılaşarkən matçın 72-ci dəqiqəsində yerə yıxılıb. O, xəstəxanaya aparılsa da, qısa müddətdən sonra canını tapşırıb. Maraqlıdır ki, bir vaxtlar "Bakı" klubunda çalışan Kamerun yığmasının ovaxtkı çalışdırıcısı Vinfrid Şefer Foeni yıxılmazdan öncə əvəzləmək istəsə də, o, oynamaq istədiyini bildirib.

**Mikloş Feher (25 yanvar 2004)** - Macarıstan millisində ilk rəsmi qolunu Tofiq Bəhramov adına Respublika Stadionunda yığmamıza vurmuş bu futbolçu "Vitoriya" ilə oyunda ölümlə üzləşib. Bunun üçün də "Benfika" klubunun rəhbərliyi, futbolçuları və məşhur baş məşqçisi Covanni Trapattoni mövsüm başa çatdıqdan sonra mərhumun ailəsinə baş çəkərək qızıl medalı valideynlərinə verib. 2009-cu ildə isə Macarıstan millisi Lissabonda seçmə oyun öncəsi "Benfika"nın stadionunda Feherin metal büstünün açılışını edib.

**Maykl Umanika (15 avqust 2016)** - Azərbaycanda dünyasını dəyişib. Belə ki, I divizionda çıxış edən "Zaqatala" klubunun nigeriyalı yarımmüdafiəçisi məşq zamanı yerə yıxılıb. Afrikalı idmançıya tibbi kömək göstərilsə də, onun həyatını xilas etmək mümkün olmayıb. O, ürək tutmasından dünyasını dəyişib.

*Səadət Hakıyeva*

## Məşhur boksçu xəstəxanalıq oldu

Boks üzrə sabiq dünya çempionu, avstraliyalı Lukas Braun (25-1,22 KO) rinqdəki döyüşündən sonra xəstəxanaya yerləşdirilib.

Lukas Braun London şəhərindəki O2 Meydanında superağır çəki dərəcəsində WBC Silver kəməri uğrunda döyüşdə britaniyalı Dillian Uaytla (23-1,17 KO) qarşılaşıb. Döyüşün əvvəlindən üstünlük britaniyalı boksçuda olub.



Döyüşün 6-cı raundunda Uayt rəqibi tam nokauta göndərib. Həkimlər Brauna 5 dəqiqə ərzində tibbi yardım göstəriblər. Veteran boksçunu arenadan xərəkdə aparıblar. Bu, onun karyerasında ilk məğlubiyyəti olub.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19